QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 128 (5600) 11 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## İlham Əliyev: "Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir"



Səh 2

Xalqımızın qürur və şərəf tarixlərindən biri də, məhz 14 iyul 1969-cu ildir



5

Ərdoğan: "Qardaşlığımızın güclənərək davam edəcəyinə inanıram"



4

Əli Həsənovun "Azərbaycanlılara qarşı ermənilərin soyqırımı siyasəti" adlı kitabı Düşənbədə tacik və rus dillərində çap olunub



4

BMT QAK-ın regional nümayəndəsi: "Azərbaycanda qaçqınlar və məcburi köçkünlər üçün hərtərəfli şərait yaradılıb"



4

Dövlət Sərhəd Xidməti Akademiyasının məzunlarının buraxılış mərasimi keçirilib



8

Mübariz Qurbanlı: "Bu məsələdə əli olan hər kəs layiqli cəzalarını alacaq"



4

7

Vüqar Rəhimzadə: "Xalqımız öz Liderinə inanır və həyata keçirilən uğurlu siyasəti dəstəkləyir"



7

Bəhruz Quliyev: "İki sahil" qəzeti ölkə mətbuatının şərəf və əqidə simvollarından biri olaraq qiymətləndirilir"



6

"Ərdoğanın inauqurasiyadan sonra dərhal ölkəmizə səfər etməsi olduqca mühüm siyasi hadisədir"



# İlham Əliyev: “Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir”

***İyulun 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.***



Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olundu. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı İlham Əliyev bəyanatla çıxış edib:

-Əziz Qardaşım, hörmətli cənab Prezident. Hörmətli qonaqlar.

Xanımlar və cənablar. Cənab Prezident, Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram, ölkəmizə, öz Vətəninizə xoş gəlmisiniz.

Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Biz çox şadıq ki, Siz seçkilərdən sonra ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Dünən Türkiyədə Sizin andiçmə mərasiminiz keçirilmişdir və bu gün Siz Azərbaycanda rəsmi səfərdəsiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan qardaşlığının nümunəsidir, bir daha bizim birliyimizi göstərir.

**İlham Əliyev:** “Türkiyə və Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib ediblər”

Türkiyə xalqı Sizə yenidən böyük etimad, dəstək göstərmişdir. Siz uzun illər ərzində Türkiyənin inkişafı üçün çox böyük işlər görürsünüz. Sizin liderliyiniz ilə Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya miqyasında böyük gücə çevrilmişdir. Türkiyə bu gün beynəlxalq məsələlərdə söz sahibidir. İqtisadi islahatlar uğurla aparılır. İqtisadi inkişafa görə Türkiyə dünya miqyasında ən qabaqcıl yerlərdədir. Sizin liderliyinizlə Türkiyədə sabitlik tam bərqərar olub. Biz Azərbaycan xalqını Türkiyənin uğurları çox sevindirir. Türkiyə-Azərbaycan əlaqələrinin bu səviyyəyə çatmasında bizim birgə səylərimiz də mühüm rol oynayır. Bizim aramızda şəxsi dostluq əlaqələri mövcuddur və bu əlaqələr ölkələrimizi bir-birinə daha sıx bağlayır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Biz bütün məsələlərdə bir yerdəyik, bütün beynəlxalq məsələlərdə bir-birimizi daim dəstəkləyirik, bir-birimizin yanındayıq. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərir. Dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir.

Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində xalqımız etnik təmizləməyə məruz qalıb. Bu münaqişənin tezliklə həlli beynəlxalq hüquq normalarının bərpası demək olacaqdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycanın torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icra edilməlidir, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.



**Rəcəb Tayyib Ərdoğan:** “Bizim Türkiyə-Azərbaycan əlaqələrimiz, bildiyiniz kimi, “Bir millət, iki dövlət” anlayışı əsasında inkişaf edir”

Türkiyənin bu məsələ ilə bağlı mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və eyni zamanda, Türkiyə-Azərbaycan qardaşlığına, dostluğuna əsaslanır. Azərbaycan da öz növbəsində, bütün məsələlərdə daim Türkiyəni dəstəkləyir. Bizim birgə fəaliyyətimiz bundan sonra da davam etdiriləcəkdir.

Bu gün keçirdiyimiz görüş əsnasında bir çox məsələlər haqqında fikir mübadiləsi aparıldı. Görülmüş işlər təhlil edildi, gələcək planlar haqqında müzakirələr aparıldı. Bizim ticarət dövriyyəmiz artır və daha da artmalıdır. Qarşılıqlı sərmayə qoyuluşu davam edəcək. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 13,9 milyard dollar sərmayə qoyub. Türkiyə şirkətləri isə Azərbaycana 12 milyard dollardan çox vəsait yatırıblar. Bu böyük rəqəmlər, əslində, bizim əlaqələrimizi göstərir. Çünki ancaq qardaş ölkələrə bu qədər böyük sərmayə qoyula bilər.

Bildiyiniz kimi, biz ölkələrimiz, xalqlarımız və dünya üçün böyük əhəmiyyət daşıyan enerji layihələrini birlikdə həyata keçiririk. Keçən ay Əskişəhər şəhərində TANAP-ın açılışında bərabər olmuşuq. Bu, təbiidir və çox böyük məntiqə əsaslanır. Çünki TANAP layihəsinin təməlini biz 2012-ci ildə İstanbulda birlikdə qoymuşuq. Aramızda imzalanmış TANAP üzrə saziş artıq gerçəkləşdi və bu tarixi layihəyə start verildi.

“Cənub Qaz Dəhlizi” layihəsinin uğurla icrası başa çatır. TANAP layihəsinin başa çatması bu istiqamətdə atılan çox böyük addımdır. Bildiyiniz kimi, əvvəlki illərdə də digər böyük enerji layihələri birlikdə həyata keçirilib. Türkiyə və Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib ediblər.

Nəqliyyatla bağlı layihələr həm ölkələrimizi gücləndirir, eyni zamanda, qitələr arasında sağlam bağlantı yaradır. Yəni, bizim birgə səylərimiz nəinki ölkələrimiz üçün, bütün bölgə üçün və Avrasiya üçün böyük əhəmiyyət daşıyır. Türkiyə-Azərbaycan birliyi, dostluğu regional sabitlik üçün böyük fayda verir. Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq. Türkiyənin hərbi potensialı çox güclüdür. Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır. Hərbi sahədə bizim əməkdaşlığımız çox uğurla davam edir. Bu il hərbçilərimiz arasında yeddi hərbi təlim keçiriləcəkdir, onlardan üçü keçirilib. Azərbaycan Türkiyədən böyük sayda hərbi texnika alır. Ötən ay Azərbaycanda keçirilmiş hərbi paradda bu texnikanın bir hissəsi göstərilmişdir.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir. Əziz Qardaşım, Sizi bir daha salamlayıram. Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

Ardı Səh. 3

# İlham Əliyev: “Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir”

Əvvəli Səh. 2

x x x

Sonra qardaş Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan bəyanatla çıxış edib:

- Hörmətli cənab Prezident, əziz qardaşım. Dəyərli mətbuat nümayəndələri.

Hörmətli xanımlar və cənablar. Hörmətli qonaqlar.

Əvvəlcə sizləri öz adımdan və nümayəndə heyətim adından ən səmimi duyğularla salamlayıram. İyunun 24-də keçirilən seçkilərdən sonra dünən prezident kimi and içdim. Məndən əvvəl deputat yoldaşlarımız and içdilər. Prezident kimi and içdikdən sonra ilk səfərimi bu səhər qardaş, dost Azərbaycana etmək vəzifəmizi yerinə yetirmək istədim. İstər təkbətək, istərsə də nümayəndə heyətləri arasında görüşlərdə bu günə qədər harada idik və bundan sonra harada olmalıyıq - bunları müzakirə etmək, nəzərdən keçirmək imkanımız oldu.

Təbii ki, Azərbaycan ilə istər enerji sahəsindəki əlaqələrimiz, istərsə də müdafiə sənayesi istiqamətində addımlarımız çox böyük



“Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 13,9 milyard dollar sərmayə qoyub”



“Azərbaycanda FETÖ ilə mübarizəyə İlham qardaşımın verdiyi dəstəyə görə öz adımdan və millətim adından ona təşəkkür edirəm”

əhəmiyyət daşıyır. Bundan sonrakı prosesdə də TANAP layihəsi, - bizim üçün, Azərbaycan üçün həyati əhəmiyyətli layihədir, - təkcə Azərbaycan-Türkiyə deyil, eyni zamanda, Azərbaycan-Avropa bağlantısını qurmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu layihə bizi ciddi mənada maraqlandırır və bu, qardaşlığımızın bir təzahürü olaraq, eyni zamanda, strateji investisiya yatırılması baxımından da əhəmiyyətlidir. TANAP ilə əlaqədar Əskişəhərdə atdığımız addım həqiqətən də həyati bir addımdır. Bütün bunlardan başqa, Azərbaycanın sərmayə sahəsində Türkiyədəki Əliağa layihəsi həqiqətən hər cür təqdirdən daha böyükdür. Bu layihə təməli qoyulduğu gündən get-gedə davam edən, böyüyən bir sərmayə olaraq özünü göstərir. İndi də, inşallah, bu sərmayəni daha da genişləndirməyin və reallaşdırılmaqda olan bəzi layihələrin də payızda açılışını etməklə bunları birlikdə həyata keçirəcəyik.

Təbii ki, bizim Türkiyə-Azərbaycan əlaqələrimiz, bildiyiniz kimi, “Bir millət, iki dövlət” anlayışı əsasında inkişaf edir. Bu anlayışa bağlı olaraq əlaqələrimizi bu səviyyəyə çatdırdıq və irəliyə aparmaqda davam edəcəyik.

Gəldiyimiz andan etibarən göstərilən ev sahibliyinə görə şəxsən öz adımdan və nümayəndə heyətim adından ayrıca təşəkkür edirəm. Hazırda ikitərəfli ticarət dövriyyəmiz hər keçən gün artır. Yüksək səviyyəli səfərlər gündən-günə artaraq davam edir. Bunlar aramızdakı qardaşlıq duyğularının nə qədər yüksək səviyyədə olduğunu göstərməsi baxımından çox vacibdir.

Müdafiə sənayesi sahəsində Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr də bu baxımdan əhəmiyyət daşıyır. Türkiyə müdafiə sənayesi sahəsində, bildiyiniz kimi, bundan 15 il əvvəl möhtac bir millət ikən, indi ehtiyaclarının böyük bir qismini artıq özü ödəyə bildiyi səviyyəyə gəlib - 20 faiz səviyyəsində ikən, hazırda 65 faizini özü ödəyən ölkəyə çevrilib. Bununla da müdafiə sənayesi sahəsində də ixracatı artıran bir Türkiyə var. Təbii ki, bunu qardaş ölkələrlə fərqli bir şəkildə bölüşmək istəyirik.

Digər bir məsələ ilə bağlı - xüsusilə Azərbaycanda FETÖ ilə mübarizəyə İlham qardaşımın verdiyi dəstəyə görə öz adımdan və millətim adından ona təşəkkür edirəm. Çünki onlar burada da özlərinə yer tapmağa cəhd göstərdilər. Bunun üçün hər vasitəyə əl atdılar. Fəqət, istər İlham qardaşımın bu məsələdə həssaslığı, istərsə də bizdə olub, Azərbaycan əleyhinə fəaliyyət göstərənlərə qarşı koordinasiyalı işimiz bir çox məsələnin ardıcıl həll olunmasını təmin etdi. Maarif Vəqfimiz ilə, inşallah, Azərbaycanın Təhsil Nazirliyinin birlikdə həyata keçirəcəyi fəaliyyətlə buradakı boşluğu da aradan qaldırmaq imkanı əldə edəcəyik.

Təbii ki, ikitərəfli ticarət məsələsində hədəfimiz, inşallah, mövcud rəqəmi iki, üç dəfə artırmaqdır. Digər bir məsələ isə xüsusilə Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etdik. Bu məsələni daim diqqət mərkəzində saxladıq, bundan sonra da saxlamaqda qətiyyətliyik. Naxçıvanla ölkəmiz arasında quru yolundakı problemlər həll edilmiş vəziyyətdədir. İndi yeni bir addım olaraq, - bu məsələ ilə əlaqədar daha əvvəl də İlham qardaşımla danışmışdıq, - lazım gələrsə dəmir yolu məsələsini də həll etməklə aradakı bu əlaqələri daha yüksək səviyyəyə çatdırmaq hər iki ölkəyə əlavə güc verəcək.

Həmçinin cənab Prezident ilə gündəmə gətirdiyimiz səhiyyə sahəsində, Naxçıvanda yaşayan qardaşlarımızın xüsusilə Türkiyədəki sərhədboyu bölgələrdə tədris-müalicə ocaqlarında, dövlət xəstəxanalarında onlara hər cür rahatlığı öz xalqımıza təmin etdiyimiz kimi şərait yaratmaqla bağlı dəstək verəcəyimizi özünə bildirdim. Bu məsələdə də birliyimizin, həmrəyliyimizin olmasının vacibliyinə inandığımı xüsusilə söylədim.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Əməkdar hüquqşünas” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi ilə bağlı Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1184-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1216-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1212-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1211-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Miqrasiya idarəetmə sisteminin inkişafı və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 805 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

## Əli Həsənovun "Azərbaycanlılara qarşı ermənilərin soyqırımı siyasəti" adlı kitabı Düşənbədə tacik və rus dillərində çap olunub




Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Azərbaycanlılara qarşı ermənilərin soyqırımı siyasəti" adlı kitabı Düşənbədəki "Buxaro" nəşriyyatında tacik və rus dillərində çap olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Tacikistandakı səfirliyinin təşəbbüsü ilə nəşr edilmiş kitabı tacik dilinə Gulnazar Keldi tərcümə edib. Artıq on birinci dildə nəşr edilmiş əsərdə son iki əsrdə azərbaycanlılara qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti təhlil olunur. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, yerləşdirilməsi və xalqımıza qarşı törətdikləri soyqırımları kitabda sistemli şəkildə öz əksini tapıb. Bununla yanaşı, əsərdə erməni millətçilərinin təcavüzkar siyasəti nəticəsində XX əsrdə azərbaycanlıların 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalması mənbələrə əsasən təhlil edilir. Göstərilir ki, erməni millətçiləri XIX əsrin sonunda - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdıqdan sonra ermənilərin "böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoyub və onlar öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda türk-müsəlman əhalisinə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar.

Monoqrafiyada 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş soyqırımlarının Bakı, Quba, Şamaxı ilə yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlının qətlə yetirilməsi elmi mənbələrə əsasən tədqiq edilir.

Kitabda xarici dillərdə Azərbaycan tarixinin ayrı-ayrı dövrlərinə dair xəritələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında fotolar da yer alıb. Bununla yanaşı, XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və işğalçılıq siyasəti, o cümlədən 1988-1993-cü illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti elmi mənbələr əsasında araşdırılır. 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinin işğalı zamanı dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş vəhşiliklər xarici mənbələrə əsasən geniş təhlil edilir. Bu soyqırımı aktı bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi səciyyələndirilir. Həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinin strateji əhəmiyyətini şərtləndirən səbəblər öyrənilir.

Əsərdə Xocalı soyqırımının dünyaya çatdırılması, ona siyasi-hüquqi qiymətin verilməsi istiqamətində görülən işlər, eləcə də Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması məsələləri geniş tədqiq olunur. Müəllif diqqətə çatdırır ki, Xocalı soyqırımı dünya tarixində heç vaxt unudulmayan Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli soyqırımlarından heç də geri qalmır. Kitab təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də Ermənistanın dövlət terrorizmi siyasətinin dünya ictimaiyyətinə daha geniş miqyasda çatdırılması və ifşa olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

## Mübariz Qurbanlı: "Bu məsələdə əli olan hər kəs layiqli cəzalarını alacaq"



"Gəncə şəhərində törədilən cinayət birbaşa terror aktıdır. Bunu təşkil edənlər, arxasında duranların qarşılarına qoyduğu əsas məqsəd ölkədə ictimai-siyasi sabitliyi pozmaq, qarşıdurma yaratmaq və dindən bu ad altında istifadə etməkdir". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, Azərbaycan güclü dövlətdir: "Kimlərsə bu cür hadisələrlə ictimai siyasi sabitliyi poza bilməz. Bunu din adı altında edənlər, əslində, dini təhrif edirlər. Çünki bu, dinə aid məsələ deyil. Məsələnin arxasında kimlərin və hansı məqsədlərin dayandığı hər kəsə bəllidir. Hüquq-mühafizə orqanları araşdırma aparır və nəticə hər kəsə aydın olacaq. Əminəm ki, bu məsələdə əli olan hər kəs layiqli cəzalarını alacaqlar. Bunun arxasında duran xarici və ya daxili dairələr varsa, onlar da ifşa olunacaq".

Komitə sədri təəssüf hissi ilə qeyd edib ki, bəziləri bunu yalnız yozublar: "Artıq mahiyyət bəllidir. Gəncədə terror aktını törədənlərin kimliyi, onları müdafiə edənlər ortadadır. Bu, yalnız Azərbaycanın əleyhinə çıxış edən qrupların işidir. Onlar öz istəyinə nail olmayacaqlar".

## Bakı-Tbilisi-Ceyhan kəməri ilə indiyədək nəql edilən neftin həcmi 400 milyon tona çatıb



Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə bu vaxtadək nəql olunan neftin həcmi 400 milyon tona çatıb. Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında BP şirkətinin Bakı ofisinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı deyib. "BTC boru kəməri ilə nəql olunan xam neftin ümumi həcmi bu gün, iyulun 10-da 400 milyon tona çatıb. Bütün bu həcmlər ümumilikdə 3 min 924 tankerə yüklənərək Ceyhan terminalından təhlükəsiz şəkildə dünya bazarına yola salınıb", - deyə T.Bayatlı bildirib.

## Ərdoğan: "Qardaşlığımızın güclənərək davam edəcəyinə inanıram"



Prezident seçiləndən sonra ilk xarici rəsmi səfərini iyulun 10-da Azərbaycan Respublikasına edən qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan AZƏRTAC-a və Azərbaycan Televiziyasına müsahibə verib. Prezident Rəcəb Tayyib Ərdoğan deyib: "Bildiyiniz kimi, biz bu qardaşlığımızı "bir millət, iki dövlət" anlayışı ilə bu günə qədər gətirdik. Dünən andiçmə mərasimimizi keçirdik, yeni hökumətimizin tərkibini açıqladıq. Ardınca isə Azərbaycanda prezident seçkilərindən dərhal sonra qardaşım İlham Əliyev bizi necə ziyarət etdisə, biz də ilk səfərimizi Azərbaycana edirik. Bu qardaşlıq mesajımızı azərbaycanlı qardaşlarımıza ən güclü şəkildə çatdırmaq istəyirik.

Bu gün İlham Əliyev ilə təkbətək görüş keçirəcəyik. Sonra nümayəndə heyətləri arasında görüş olacaq. Ardınca isə mətbuata açıqlama ilə qarşımızdakı hədəflərimizi ifadə edəcəyik. Bu qardaşlığımızın güclənərək davam edəcəyinə inanıram. Bunu TANAP-da gördük, bunu TAP-da gördük, bunu xüsusilə Əliağa neftayırma zavodunda atılan addımlarda gördük. Bundan sonra bunlar daha güclü şəkildə davam edəcək. Mən şəxsən öz adımdan, millətim adından bütün azərbaycanlı qardaşlarıma salam, sevgi və ehtiramımı çatdırıram".

## BMT QAK-ın regional nümayəndəsi: "Azərbaycanda qaçqınlar və məcburi köçkünlər üçün hərtərəfli şərait yaradılıb"



İyulun 10-da Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov ölkəmizdə səfərdə olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) regional nümayəndəsi Yohannes van der Klauvun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Əli Əhmədov qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin, sosial təminatının yaxşılaşdırılması istiqamətində görülən işlər barədə qonaqlara ətraflı məlumat verib. O, BMT QAK-ın hər zaman Azərbaycan hökumətinin reallaşdırdığı layihələrin dəstəkçisi olduğunu vurğulayıb.

Əli Əhmədov görüşdə iştirak edən "Fuji Optical Co. Ltd" şirkətinin rəhbəri, dünya şöhrətli oftalmoloq Akio Kanaiyə ölkəmizdəki qaçqın və məcburi köçkünlərə, aztəminatlı ailələrə göstərilən təmənnasız optometrik xidmətə görə Azərbaycan hökuməti adından təşəkkürünü bildirib, bunun ən böyük humanistlik və xeyirxahlıq nümunəsi olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, Yaponiyanın "Fuji" humanitar missiyası Azərbaycandakı humanitar fəaliyyətinin yerinə yetirilməsi üçün 2005-ci ildən indiyədək 2,6 milyon ABŞ dollarınadək vəsait xərcləyib. 54 minədək yüksəkkeyfiyyətli optik eynək və digər əşyalar BMT QAK xətti ilə Azərbaycana gətirilib. Ümumilikdə, 28 mindən artıq qaçqın, məcburi köçkün və digər həssas qruplardan olan insanlar BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin aidiyyəti hakimiyyət orqanları ilə birgə şərait yaratdığı ödənişsiz göz müayinəsi xidmətlərindən faydalanıb. "Siz həm də Beyləqan rayonunda sudan əziyyət çəkən bəzi insanlara yardım etmisiniz, buna görə də sizə təşəkkür edirik", - deyə Baş nazirin müavini bildirib.

BMT QAK-ın regional nümayəndəsi Yohannes van der Klauv Azərbaycanda qaçqın və məcburi köçkünlər üçün yaradılan hərtərəfli şəraitdən məmnun qaldıqlarını qeyd edib. Sonra Akio Kanai Azərbaycanda gördükləri işlər barədə ətraflı məlumat verib. Görüşdə maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. BMT-nin qaçqınlar üzrə ali komissarının Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Quido Ambroso da görüşdə iştirak edib.

## Seymur Orucov Gəncədəki hadisə ilə bağlı gənclərə çağırış etdi



"Ümumiyyətlə, Gəncədə törədilən terror hadisəsini qəti şəkildə pisləyirəm. Çünki bu, olmaması gərəkən bir hadisə idi. Biz təkcə icra başçısına yox, hər hansı bir vətəndaşa qarşı da bu cür terror hadisəsini ölkəsindən, dinindən, milliyyətindən asılı olmayaraq hər zaman pisləmişik. İndi də kimlərsə bu terror hadisəsindən sui-istifadə edərək ölkədə əmin-amanlığı pozmağa cəhd edirlər". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, bu gün sosial şəbəkələr vasitəsilə də həmin olaylara don geyindirilməyə çalışılır: "Sosial şəbəkələrin müsbət cəhətləri olduğu kimi bəzən bu cür qanunsuz əməllər üçün də istifadə edənlər var. Lakin buna baxmayaraq Azərbaycan dövləti tərəfindən təxribatçı əməllərə dəstək olanlar cəzalandırılacaqlar. Bu gün Azərbaycanın hüquq-mühafizə orqanları yerindədir və lazımı tədbir görəcəklər. Mən təxribat xarakterli çağırışlara uya biləcək gənclərimizə də üzümü tutub deyirəm ki, bu cür hadisələrə reaksiya verməsinlər. Ümumiyyətlə bir terror hadisəsini dəstəkləmək nə deməkdir? Bu işdə gənclərimiz daha diqqətli və ehtiyatlı olmalıdır. Elementar təfəkkürü olan insan başa düşməlidir ki, bunlar hamısı ölkəni qarışdırmaq istəyən güclərin qurmuş olduğu ssenaridir".

# Xalqımızın qürur və şərəf tarixlərindən biri də, məhz 14 iyul 1969-cu ildir

*Ulu Öndər Heydər Əliyev hakimiyyətinin birinci dövründə respublikamızın iqtisadiyyatına xüsusi önəm verməyə başladı və ölkəmiz bütün sahələrdə, o cümlədən, kənd təsərrüfatı sahəsində tənəzzüldən inkişafa doğru istiqamət götürdü*

***Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Ulu Öndər Heydər Əliyev epoxasının müstəsna yeri və rolu danılmazdır. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi olan Ümummilli Lider Heydər Əliyev öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Azərbaycanı dünyaya tanıdıb, onun nüfuzunu yüksəklərə qaldırıb. Bu dahi və fenomen şəxsiyyət 34 ilə yaxın bir dövrdə Azərbaycana rəhbərlik edib, 5 ildən artıq SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olub.***

Xalqımızın qürur və şərəf tarixlərindən biri də, məhz 14 iyul 1969-cu ildir. Belə ki, Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il plenumunda Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Heydər Əliyev təyin edildi. Bu təyinatdan cəmi 20 gün sonra keçirilən Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumu respublikada əvvəlki illərdəki nöqsanların tənqid olunduğu dönüş plenumu kimi yaddaşlarda qalıb. Çünki 1969-cu ilin iyuluna qədər respublikanın iqtisadi vəziyyəti ürəkaçan deyildi. Xüsusən, kənd təsərrüfatında vəziyyət daha acınacaqlı idi. Məhz bu kimi halların aradan qaldırılması üçün Ümummilli Liderimiz hakimiyyətinin birinci dövründə respublikamızın iqtisadiyyatına xüsusi önəm verməyə başladı və ölkəmiz bütün sahələrdə, o cümlədən, kənd təsərrüfatı sahəsində tənəzzüldən inkişafa doğru istiqamət götürdü. Təkcə, o dövrün statistikasına nəzər salanda, bunu aydın görmək olar. Məsələn, 1971-ci ildə respublikanın neftçıxarma tarixində, ilk dəfə olaraq, milyardıncı ton neft çıxarılıb. Pambıq istehsalı 1971-ci ildə 381,6 min ton idisə, 1981-ci ildə 1 milyon tona, üzüm istehsalı 381,9 min tondan 1 milyon 616 min tona, taxıl istehsalı 211,9 min tondan 1 milyon 150 min tona çatıb.

Bu iqtisadi irəliləyişlə paralel olaraq, 70-80-ci illərdə respublikada 500 mindən artıq yeni iş yeri açılıb.

## O özünün bütün şüurlu həyatı boyu şəxsi nümunəsi ilə sübut etmişdir ki, Azərbaycan xalqının və dövlətinin inkişafı naminə yorulmaz fədai, təəssübkeş himayəçidir

20-ci əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqgörən və müdrik siyasəti sayəsində güclü kadr potensialını yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoymuşdur. O özünün bütün şüurlu həyatı boyu şəxsi nümunəsi ilə sübut etmişdir ki, Azərbaycan xalqının və dövlətinin inkişafı naminə yorulmaz fədai, təəssübkeş himayəçidir.

Heydər Əliyev sosial-iqtisadi sahələrdə olduğu kimi, Azərbaycanın təhsil sisteminin son 35 illik inkişafı tarixində əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar müxtəlif mərhələlərdə, xüsusən, 70-80-ci illərdə və müstəqillik dövründə aparılan təhsil islahatlarının hazırlanması və həyata keçirilməsi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin bəhrəsidir. O cümlədən, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, gələcəkdə müstəqil Azərbaycanın Ordusunun formalaşması üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, sözün əsl mənasında, fenomenal bir tarixi addım oldu.

Heydər Əliyevin fəaliyyəti yüksək qiymətləndirilərək, 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O zaman SSRİ Nazirlər Soveti sədrinin 12 müavinindən yalnız bir nəfər birinci müavin idi. Görkəmli rəhbər həm də ilk Sosialist Əməyi Qəhrəmanı, 10 Siyasi Büro üzvündən biri olduğu üçün SSRİ rəhbərliyində aparıcı şəxs hesab olunurdu. Erməni lobbisinin əlində alətə çevrilmiş və Azərbaycan xalqının qatı düşməni olan M.S.Qorbaçovun qərəzli münasibəti tezliklə özünü göstərdi. Siyasi Büro üzvlüyündən uzaqlaşdırılan Heydər Əliyev 1987-ci ilin sonundan 1990-cı ilin iyuluna kimi Moskvada yaşamış, sonra isə Bakıya, oradan isə Naxçıvana gəlmişdi. Bununla da, xalqımızın qəhrəman oğlunun həyatının yeni mərhələsi başlanmışdır. Bu mərhələdə o, Azərbaycan Respublikası Parlamentinin deputatı, Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsindən Azərbaycan Respublikası Milli Məclisinin Sədri, dövlət başçısı postuna qədər çətinliklərlə dolu, gərgin bir yol keçmişdir. Bununla da, Heydər Əliyev hakimiyyətinin ikinci dövrü (1993-2003) başlanmışdır.



## Azərbaycan həm iqtisadi, həm də beynəlxalq siyasət arenasında böyük uğurlar əldə edib

Təqdirəlayiq haldır ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi strategiya son illərdə onun layiqli davamçısı və varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan bütün sahələrdə çox böyük inkişafa nail olmuşdur.

Siyasət aləmində öz sözünü deyən, beynəlxalq arenada böyük nüfuz qazanan dövlətimizin başçısı Cənab İlham Əliyev ölkəmizin daha da qüdrətlənməsi naminə əzmlə çalışır.

Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin icrasına dair keçirdiyi müşavirədə çıxış edən ölkə başçımız vurğuladı ki, dövlətimizin dinamik inkişafı təmin edilir. Belə ki, bu gün Azərbaycan həm iqtisadi, həm də beynəlxalq siyasət arenasında böyük uğurlar əldə edib. Prezident İlham Əliyev Cənabları həmin müşavirdə vurğulayıb ki, bu ilin aprelində keçirilən prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı dövlətin apardığı siyasətə çox yüksək qiymət verir. “Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir”-deyə vurğulayan ölkə başçımız onu da bildirib ki, bu böyük dəstək Azərbaycanın sonrakı illərdə əldə edəcəyi davamlı inkişafı daha da sürətləndirəcək.

## Danılmaz faktdır ki, kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün suvarma sistemlərinin yenidən qurulması da vacibdir və bu istiqamətdə də lazımı tədbirlər həyata keçirilir

Bəli, bu inkişaf və tərəqqi bütün sahələrlə yanaşı, kənd təsərrüfatı sahəsini də ehatə etməkdədir. Həm də bir kənd təsərrüfatı, eləcə də, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı mütəxəssisi olaraq, deyə bilərəm ki, son illərdə qeyri-neft sektorunun, xüsusilə, kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər regionlarda kənd təsərrüfatı məhsullarının istehsalının artmasına əsaslı dərəcədə təsir göstərib. Dövlətin bu məqsədlə fermerlər və sahibkarlara verdiyi dəstək də kənd təsərrüfatı məhsullarının istehsalının artmasında müsbət rol oynayır. Bu, bir danılmaz faktdır ki, kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün suvarma sistemlərinin yenidən qurulması da vacibdir və bu istiqamətdə də lazımı tədbirlər həyata keçirilir. Bu baxımdan, respublikanın hər bir bölgəsində olduğu kimi, Xızı rayonunda da qeyd edilən istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Müntəzəm olaraq suvarma sistemləri yenidən qurulur, bu sahədə mövcud olan problemlər və çatışmazlıqlar tədricən aradan qaldırılır.

Onu da qeyd etmək istərdim ki, bu gün fermerlər, su istifadəçilərinin torpaq sahələrində aparılan yenidənqurma, cari və əsaslı təmirlər, demək olar ki, dövlət tərəfindən həyata keçirilir. Bu da Cənab Prezident İlham Əliyevin kənd təsərrüfatına olan diqqət və qayğısından irəli gəlir. Göründüyü kimi, bu gün ölkədə kənd təsərrüfatının inkişafına diqqət artıb. Cənab Prezidentin diqqət və qayğısı nəticəsində bu gün kənd təsərrüfatında inkişaf özünü göstərir. Elə bir region, bölgəmiz yoxdur ki, orada qeyd etdiyimiz sahədə inkişaf nəzərə çarpmasın.

## Məhz Heydər Əliyevin istər 1969-cu ildə, istərsə də 1993-cü ilində hakimiyyətə gəlməsi Azərbaycanın inkişaf mərhələsinə qədəm qoyması ilə nəticəsini tapdı

Bu gün Xızı rayonunda 1900-dən çox şəxs Yeni Azərbaycan Partiyasının üzvüdür. Partiya üzvləri Xızı rayonunun idarə və müəssisələrində çalışaraq, öz növbələrində, rayonun inkişafına töhfələrini verirlər. Təkcə seçkilərdə deyil, eləcə də, bütün tədbirlərdə partiyamızın üzvləri öz fəallıqlarını göstərirlər. Məlumat üçün qeyd edim ki, Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan “Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində bu günlərdə Xızı rayonunda minlərlə ağaclar əkilib, yaşıllaşdırma işləri aparılıb, onlara aqrotexniki qaydada xidmətlər göstərilib. Eləcə də, digər tədbirlərdə biz Yeni Azərbaycan Partiyasının üzvləri olaraq fəal iştirak edirik. Dövlətimiz, dövlət başçımız partiya üzvlərinə böyük diqqət və qayğı göstərib onları təltif etdiyi, mükafatlandırdığı kimi, biz də, öz növbəmizdə, rayon təşkilatı olaraq fəal üzvlərimizi fəxri fərmanlar və diplomlarla mükafatlandırırıq.

Rayon ictimaiyyəti, yalnız davamlı qələbə və inamlı inkişaf ruhunda, əhval-ruhiyyəsindədir. Hər bir xızılı onu da gözəl bilir ki, bu gün Azəbaycanın əldə etdiyi nailiyyətlər, ölkəmizin dünyada nüfuzunun, siyasi çəkisinin artması, məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Məhz Heydər Əliyevin istər 1969-cu ildə, istərsə də 1993-cü ilində hakimiyyətə gəlməsi Azərbaycanın inkişaf mərhələsinə qədəm qoyması ilə nəticəsini tapdı.

Bir daha vurğulamaq istərdim ki, bu gün Heydər Əliyev siyasi kursu Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz Cənab Prezidentin yorulmaz, məqsədyönlü fəaliyyəti nəticəsində, bu gün Azərbaycan dünyanın sayılıb-seçilən ölkələri sırasında qərarlaşıb və regionun lider dövlətinə çevrilib. Əldə edilən uğurlu nəticələr və nailiyyətlər bizlərin hər birində böyük iftixar hissləri oyadır. Biz inanırıq ki, Azərbaycan dövləti bundan sonra daha da inkişaf edəcək, yeni-yeni uğurlara imza atacaq, Ulu Öndər Heydər Əliyev ideologiyasını əbədi olaraq yaşadacaq. Bunu bütün Azərbaycan xalqı, eyni zamanda, xızılılar bilir və ən yüksək şəkildə qiymətləndirir.

***Fərrux Haqverdiyev,***
***YAP Xızı rayon təşkilatının sədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Xızı Suvarma Sistemləri İdarəsinin rəisi***

# Türkiyə-Azərbaycan münasbətlərinin geosiyasi əhəmiyyəti var

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra ilk səfərini yenə Azərbaycana etməsi və ölkəmizdən birbaşa Brüsselə yollanacağı bütün dünya ölkələrinə mühüm mesajlardır. Andiçmədən dərhal sonra Azərbaycana edilən səfər, yeni növbəti prezidentlik dövründə ilk rəsmi səfər bir daha qardaşlıq münasibətlərinin ən yüksək səviyyədə olduğunu isbatlayır. Çox qısa və simvolik xarakter daşısa da, bu səfər Ərdoğanla Əliyevin təməlini qoyduqları ənənənin davamıdır və Ümummilli Lider Heydər Əliyevin təbirincə desək, "Bir millət-iki dövlət" prinsplərini özündə ehtiva edir.***



Türkiyə və Azərbaycan dövlət başçılarının seçkisonrası ilk rəsmi səfərini qardaş ölkəyə edən bu jesti, artıq illərdir formalaşmış bir ənənə halını alıb Ərdoğanın bu dəfə də seçildikdən sonra xaricə ilk səfərini Azərbaycana etməsi hər şeydən öncə, iki qardaş ölkənin dost-müttəfiqliyinin sarsılmazlığı, rəsmi Ankara üçün Azərbaycanın məxsusi önəm daşıdığı barədə dünyaya aydın bir mesajdır. Onsuz da bütün dünya dövlətləri Türkiyə-Azərbaycan birliyinin hazırda bütün əməkdaşlıq sferalarını əhatə etməsindən və ilbəil dərinləşməsindən məlumatlıdır. Xüsusən də, energetika, təhlükəsizlik, hərbi və hərbi-texniki sahələrdə ikitərəfli əlaqələrin yüksələn xətt üzrə inkişafı diqqət mərkəzindən kənarda qala bilməz.

Türkiyə prezidentinin çox təhlükəli regional situasiyaya təsadüf edən budəfəki ziyarəti, məhz bu baxımdan diqqət mərkəzindədir. Xüsusilə, vurğulamaq yerinə düşərdi ki, Ərdoğanın ölkəmizə səfəri regionda baş verən hadisələrin ardınca reallaşır. Bura qonşu dövlətdə, yeni işğalçı Ermənistanda hakimiyyət çevrilişinin yaratdığı yeni reallıqlar, təcavüzkar ölkənin yeni populist rəhbərliyinin avantürist davranışları və təhlükəli gedişləri də daxildir. Təbii ki, təkcə Azərbaycanla deyil, bütövlükdə, türk dünyası ilə ədavət aparan Ermənistanda baş verənlərin, Qərbin bu işğalçı dövləti qızışdırdığının ardınca qardaş ölkə prezidentinin andiçmə mərasimindən dərhal sonra və ilk olaraq, məhz Azərbaycana səfəri dünya ictimaiyyətinə bu iki qardaş ölkənin birliyini bəyan edən növbəti jestdir. Bütün dünya ölkələri, ələlxüsus, ermeniləri dəstəkləyən Qərb bu jesti ölkələrimiz arasında qardaşlıq münasibətlərinin davamına işarə olaraq qəbul edir və bu mənada, haqlıdır. İndi hər bir ölkə haqlı olaraq düşünür ki, Türkiyə hər bir sahədə, eyni zamanda, düşmənlə mübarizədə Azərbaycanın yanındadır.

## Ermənilər başa düşürlər ki, Türkiyə-Azərbaycan birliyini sarsıtmaq mümkünsüzdür və Ermənistanda yaranan xof başadüşüləndir

Əgər Ərdoğanın, onun timsalında Türkiyənin ölkəmizə qardaş münasibət bəsləməsindən dünyanın bir çox ölkələri narahatdırlarsa, gör indi Ermənistan nə haldadır. Ermənilər çox yaxşı başa düşürlər ki, bu birliyi sarsıtmaq mümkünsüzdür və əslində, bu birlik onların başına düşən daş anlamına gəlir. İşğalçılar yaxşı bilirlər ki, Türkiyə Azərbaycana hər zaman dəstəkdir və ölkəmizə düşmən mövqe bəsləyənləri özünə düşmən hesab edir. Öz yerini baş nazir kürsüsündə rahatlayan Paşinyan kimi küçə nümayişçisindən tutmuş havadarlarına qədər, hər kəs dərk edir ki, Türkiyə proseslərə biganə qalmaq niyyətində deyil. Nə işğalçıların mövqeyi, nə də bir az əvvəl belində çanta küçə və dalanlarda qara-qışqırıq salan Nikolun uğursuz bəyanatları türk dünyası üçün qənaətbəxş hesab oluna bilməz və şübhə yox ki, tərəflər bununla bağlı da vahid mövqe sərgiləyəcək, düşmən tərəfə növbəti ismarıclar göndərəcək. Əlbəttə ki, söhbət, həmçinin, həlli uzanan Qarabağ məsələsindən və xeyli dərəcədə artan müharibə riskindən də gedir.

Türkiyənin "Zeytun budağı" əməliyyatları və əldə etdiyi qələbələr, mükəmməl qalibiyyət, onsuz da ermənilərin kürkünə birə salmışdı və indi türklərin hansı gücə sahib olduqları, hansı nüfuza malik olduqları işğalçıların yuxusunu da ərşə çəkib. Digər tərəfdən, Rusiya kimi regionda söz və nüfuz sahibi olan bir dövlətin də Türkiyə ilə hesablaşması danılmaz fakt kimi erməniləri çox məyus edir. Üstəlik, dünya dövlətlərinin Türkiyənin mübarizəsinə mane ola bilməməsi də, Ərdoğanın qısa bir zaman kəsiyində terrorçuları məhv etməsi də ermənilər üçün çox ağır zərbədir. Çünki Türkiyənin mübarizə apardığı terrorçuluq işğalçı Ermənistanın da strategiyasının əsasını təşkil edir və ermənilər, çox yaxşı başa düşürlər ki, növbəti hədəf onlar özləri də ola bilər. Məhz bu baxımdan qardaş ölkə prezidentinin andiçmə mərasimindən sonra, ilk öncə, terrorçuların əməllərinin nəticəsi olaraq Qarabağ problemi yaşayan Azərbaycana səfərinin bütün Ermənistanda dəhşətli bir xof yaratması başadüşüləndir.

## İki qardaş ölkə arasında tarixi hərbi saziş günün reallığıdır və artıq Qarabağ Türkiyənin də problemi olaraq qəbul edilə bilər

Ekspertlər hesab edirlər ki, Türkiyə prezidentinin Azərbaycana bu səfəri zamanı ölkələrimiz arasında tarixi hərbi saziş də imzalana və iki dövlət arasındakı münasibətləri bir qədər də irəli səviyyəyə apara bilər. Hətta simvolik xarakter daşıyan qısamüddətli bu səfər zamanı tarixi hərbi saziş imzalanmasa belə bu sazişin zəruriliyinə zərrə qədər şübhə yoxdur və ən yaxın gələcəkdə belə bir sazişin reallaşacağı öz aktuallığını qoruyur. Azərbaycan və Türkiyə uzun müddətdir ki, hərbi-siyasi sazişin bağlanmasına, iki ölkə arasında hərbi ittifaqın mövcudluğunu həyata keçirməyə can atırdısa da, Türkiyə parlamentində belə bir ittifaqın yaradılması üçün razılıq əldə etmək çətin idi. Hazırda isə hakim koalisiya parlamentdə yerlərin əksəriyyətini əldə edib və prezident üsul- idarəsinə keçid, həmçinin, Ərdoğan hakimiyyətini bir az da gücləndirib. Məhz bu baxımdan iki ölkə arasında hərbi-siyasi münasibətləri daha yüksək səviyyəyə qaldıra biləcək sazişin imzalanma zərurəti və reallığı artıq bundan sonra şübhə doğura bilməz.

Hərbi-siyasi sazişin imzalanması həm ölkədə qanunvericilik səviyyəsində, həm də NATO ilə razılaşdırılmış şəkildə də mümkündür. Onsuz da Ərdoğan kifayət qədər müstəqil siyasət aparır və məhz bu baxımdan Azərbaycan üçün çox önəmli olan belə bir sazişin imzalanmasına nail olmaq günün reallığıdır. Nəzərə almaq lazımdır ki, həmin saziş imzalanarsa, artıq Qarabağ təkcə Azərbaycanın problemi olmaqdan çıxaraq, eyni zamanda, Türkiyənin də problemi olaraq qəbul edilə bilər. Sözsüz ki, bu, imzalanacaq sənədin müddəalarından asılıdır və Türkiyənin artıq Azərbaycanın ərazi bütövlüyü məsələsində daha qətiyyətli addımlar ata bilməsi üçün belə bir sazişin imzalanmasında maraqlı olduğu şübhə doğura bilməz. Ona görə şübhə doğura bilməz ki, Ərdoğan Qarabağ problemini də özünün seçki platformasına daxil etmişdi və bu da, eyni zamanda, təsdiq edir ki, həmin sazişin reallaşması özünü çox gözlətməyəcək.

Çox güman ki, Belçikanın paytaxtında Ərdoğanla Paşinyan qarşılaşa da bilər və bu zaman Türkiyə-Ermənistan sərhədi, həmçinin, Qarabağ məsələsi də müzakirə mövzusu ola bilər. Təbii ki, sadalanan reallıqlar fonunda Ərdoğan dilemmalarla çıxış etmək iqtidarındadır və Nikolun bu reallıqları qəbul etməkdən başqa çıxış yolu da qalmır. Əlbəttə, öz ağılsız, düşünülməmiş qərarları kimi bunu da qəbul etməyəcəyi təqdirdə, ölkəsini hansı sonluq gözləyəcəyinin fərqində olmasa da, bu, onun problemidir. Amma Qərbin marianeti olan, bir müddət öncə, nümayişçi kimi önə atılan bu baş nazirin onsuz da ipi öz əlində deyil və siyasi səhnədən zərrə qədər baş çıxara bilməyən Nikola havadarları düşünülməmiş qərarlar verməyə çətin ki, izn versinlər.

Göründüyü kimi, Ərdoğanın bu addımı, yeni andiçmə mərasimindən dərhal sonra və ilk dəfə Azərbaycana rəsmi səfəri Türkiyə və Azərbaycanın təkcə siyasi-iqtisadi kontekstdə deyil, həm də mənəvi-psixoloji münasibətlərdə də çox yaxın olduğunun sübutu kimi qiymətləndirilir. Türkiyə-Azərbaycan münasbətləri dünya səviyyəsində müşahidə olunmayan yaxınlığa malikdir və bunu beynəlxalq ictimaiyyət də çox gözəl dərk edir. Bu baxımdan, belə yaxınlığın böyük geosiyasi əhəmiyyəti danılmazdır. Gələcəkdə də iki qardaş ölkənin bütün sahələr üzrə daha da yaxınlaşması mühüm əhəmiyyət kəsb edir və bir millət olaraq türk dünyasının gücünün daha da artmasına və inkişafına xidmət edir.

***İnam İMRANOĞLU***

## "Türkiyə ilə Azərbaycan münasibətləri digər ölkələr üçün nümunədir"



"Qardaş ölkənin prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra ilk səfərini Azərbaycana etməsi Türkiyə-Azərbaycan münasibətlərinin digər ölkələr üçün nümunə olduğunu göstərir".

Bu fikirləri SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. O bildirib ki, Azərbaycanla Türkiyənin hər zaman bir-birinin yanında olması və hər iki dövlətin mövqelərinin üst-üstə düşməsi bir reallıqdır. Politoloqun sözlərinə görə, iki qardaş ölkənin dövlət başçıları arasında yüksək səviyyəli münasibətlər dövlətlər arasında əlaqələrin inkişafına çox böyük təkan verir: "Biz çox mürəkkəb geosiyasi vəziyyətdə yaşayır, inkişaf edirik. Qərblə Şərq arasında münasibətlərin, geosiyasi qarşıdurmaların fonunda Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişafına, təkmilləşməsinə bundan sonra bir çox məsələlərlə bağlı layihələrin həyata keçirilməsinə ehtiyac var. Bu, həm Türkiyə, həm Azərbaycanın maraqlarına tam şəkildə cavab verir, həm də regionda stabillik, təhlükəsizlik məsələlərin təmin olunması üçün əhəmiyyətlidir".

Türkiyənin prezident seçkilərindən sonra yeni üsul idarəsinə keçdiyini xatırladan politoloq söyləyib ki, yeni idarəçilik sistemi qardaş ölkədə dövlət başçısının fəaliyyətinin daha da genişlənməsinə imkan yaradacaq: "Müəyyən təhlükələrlə üzləşən ölkənin güclü hakimiyyəti olmalıdır. Güclü hökumətin yaranmasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın böyük rolu var. O, artıq bir çox məsələlərdə, birmənalı şəkildə, öz mövqeyini nümayiş etdirir. Bu baxımdan Türkiyənin prezident üsul idarəsinə keçidi Azərbaycanla münasibətlərin daha geniş, dərin və hərtərəfli inkişafına şərait yaradacaq".

## "Ərdoğanın inauqurasiyadan sonra dərhal ölkəmizə səfər etməsi olduqca mühüm siyasi hadisədir"



"Qardaş Türkiyə Cümhuriyyəti ən yeni siyasi tarixinin mühüm bir səhifəsinə qədəm qoyur. Uzun illər parlamentar tipli idarəetmə sisteminin diqtə etdiyi yorucu və səmərəsiz koalisyon hökumətlər mərhələsi artıq arxada qaldı". Bunu SİA-ya Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, etnososiologiya belə izah edir ki, hər bir millətin idarəetmə sistemi onun tarixi ənənələri və milli xarakteri ilə uzlaşmalıdır, əks təqdirdə effektiv və xalqla bütünləşən siyasi idarəetmədən danışmaq olmaz: "Bu mənada tük xalqlarının demokratiya ilə bağlı seçimi həmişə birbaşa demokratiya olub.Yeni vəkaləti yaxud mərhələli demokratiya bizim milli siyasi təfəkkürümüzlə normal izah edilən hadisə deyil. Məsələn, ABŞ-da daha çox təmsilçili demokratiya, bir sıra Avropa ölkələrində parlamentar demokratiya mövcuddur. Həmin cəmiyyətlər üçün belə model məqbul hesab edilə bilər. Bizdə milli mentalitet və siyasi mədəniyyət birbaşa demokratiyanı sifariş edir. Yəni prezidenti birbaşa xalq özü seçməklə Prezident üsul-idarəsini qəbul edir. Hazırda 24 iyun seçkilərindən sonra Türkiyədə əslində bu hadisə baş verib və düşünürəm ki, Türk xalqının bu seçimi çox doğru və uzaqgörən seçimdir" .

Millət vəkili bildirib ki, Türkiyə ətrafında və bütövlükdə müsəlman Şərqində olduqca mürəkkəb hərbi-siyasi hadisələr baş verməkdədir: "Qardaş ölkə bu çətin və mürəkkəb vəziyyətdə həm öz təhlükəsizliyini təmin etməli, həm də bütövlükdə regionda müvazinətqoruyucu rol oynamalıdır. Dolayısıyla regionun geostrateji müvazinətini saxlamaqla Yaxın Şərq və Şimali Afrika ölkələri üçün rol-model olmalıdır. Eyni zamanda Qafqazlar və Orta Asiya ilə tarixi strateji əlaqələri möhkəmləndirməklə yeni Avrasiyaçılıq konsepsiyasında təyinedici ölkələrdən birinə çevrilməlidir. Bütün bunlar Türkiyənin qarısında olduqca mühüm strateji vəzifələr qoyur. Türkiyədə bunun fərqindədirlər və dərk edirlər ki, hazırda baş verən siyasi proseslərdə bu ölkənin alacağı qərarlar həm Türkiyənin, həm də onun müttəfiqlərinin, o cümlədən Azərbaycanın gələcəyi baxımından həyati vacib əhəmiyyətlidir. Ona görə də yeni siyasi sistemdə hakimiyyətin xalqın iradəsilə müəyyənləşmiş tək bir mərkəzdə cəmləşməsi bu çətin vəzifələri yerinə yetirməkdə strateji önəmə sahib olacaqdır. Düşünürəm ki, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın formalaşdırdığı siyasi komanda bu şərəfli vəzifənin öhdəsindən layiqincə gələ biləcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev deyib ki ,'Türkiyənin gücü bizim gücümüzdür. Bu mühüm cümlədə Türkiyə-Azərbaycan münasibətlərinin dərin strateji məzmunu öz əksini tapıb. Artıq Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycandadır və onun inauqurasiyadan sonra dərhal ölkəmizə səfər etməsi olduqca mühüm siyasi hadisədir".

# Vüqar Rəhimzadə: "Xalqımız öz Liderinə inanır və həyata keçirilən uğurlu siyasəti dəstəkləyir"



***"Artıq 2018-ci ilin 6 ayı geridə qalıb. Ötən dövrə nəzər yetirdikdə, Azərbaycanın son illərdə əldə etdiyi dinamik inkişafın ötən 6 ayda da davam etdirildiyinin şahidi oluruq. Bunu görülən işlər, həyata keçirilən uğurlu islahatlar, eyni zamanda, statistik rəqəmlər də təsdiq edir. İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı dövlətimizin başçısı əldə olunan uğurlu nəticələrlə bağlı konkret faktları diqqətə çatdırıb.***

Qeyd olunub ki, ötən altı ayda ümumi daxili məhsul 1,3 faiz, sənaye istehsalı 1 faiz, qeyri-neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 7,6 faiz, xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34 faiz, o cümlədən, qeyri-neft ixracı 20 faiz artıb. Bununla yanaşı, bitkiçilik 14 faizdən çox artıb, 67 min yeni iş yeri yaradılıb. Onlardan 58 mini daimidir. İqtisadiyyata isə 6 milyard dollar sərmayə qoyulub, əhalinin pul gəlirləri 9,3 faiz artıb. Rəqəmlərdən də göründüyü kimi, ölkəmiz öz inkişaf tempini qoruyub-saxlayıb." Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu ilin ən mühüm hadisələrindən biri aprel ayında keçirilən prezident seçkiləridir: "Azərbaycanda mükəmməl qanunvericilik bazası formalaşdırılıb. Sözsüz ki, bu amil seçki sistemində də özünü büruzə verir. Təsadüfi deyil ki, artıq uzun illərdir, ölkəmizdə ədalətli, demokratik və şəffaf şəkildə keçirilən prezident, parlament, bələdiyyə seçkiləri, eyni zamanda, referendumlar beynəlxalq standartlara cavab verir və dünya birliyi tərəfindən təqdir edilir. Hətta ölkəmizin bu sahədəki təcrübəsi nümunə kimi göstərilir. Bu mənada, 2018-ci ilin aprel ayında keçirilən prezident seçkilərini demokratik inkişaf yolunda əldə olunan növbəti uğur kimi qiymətləndirmək lazımdır. Bütün beynəlxalq standartlara, norma və prinsiplərə, seçki qanunvericiliyinə uyğun keçirilən prezident seçkiləri Cənab İlham Əliyevin möhtəşəm qələbəsi ilə yadda qaldı. Xalqımız yenidən öz Liderinə etibar edərək, etimad göstərərək Onu növbəti dəfə ölkə Prezidenti seçdi. Bununla insanlar Azərbaycanı işıqlı gələcəyə aparan siyasətə səs vermiş oldular. Seçkilərin nəticələri, bir daha göstərdi ki, xalq-iqtidar birliyi ən yüksək səviyyədədir. Xalqımız öz Liderinə inanır və son 15 ildə həyata keçirilən uğurlu siyasəti dəstəkləyir. "Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq" deyən Möhtərəm Prezidentimiz Nazirlər Kabinetinin iclasındakı nitqində antimilli ünsürlərə, ölkəmizin uğurlarını gözü götürməyən dairələrə də lazım olan mesajları verib. Bildirib ki, Azərbaycanın inkişafına, gələcəyinə qarşı olan bütün çirkin niyyətlər və əməllər iflasa məhkumdur. Dövlətimizin başçısının "Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində, Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir" fikirləri isə bu cür qərəzli dairələrə veriləcək ən tutarlı cavabdır."

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, Azərbaycan Prezidenti iclasda çıxış zamanı Dağlıq Qarabağ münaqişəsi, ordumuzun döyüş hazırlığı ilə bağlı mühüm bəyanatlar verib: "Azərbaycan uzun illərdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda problemin sülh yolu ilə həlli variantına üstünlük verir. Baxmayaraq ki, beynəlxalq hüququn əsas prinsiplərinə görə ölkələrin, xalqların öz müqəddəratlarını təyin etmək, ərazi bütövlüyünü təmin etmək hüquqları var. Ancaq göründüyü kimi, Ermənistan konstruktiv mövqe nümayiş etdirməkdən, dolayısı ilə işğal altında olan torpaqlarımızı sülh yolu ilə azad etməkdən boyun qaçırır. Buna görə də, zaman-zaman Dağlıq Qarabağ münaqişəsinin həllində hərb variantı önə çəkilir. Bunun üçün Azərbaycanın güclü potensialı, ordusu var. Elə 2016-cı ilin aprel döyüşləri, bu ilin Günnüt zəfəri göstərdi ki, güclü Ordumuz hər an torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. "...Aprel döyüşləri də Ermənistanın o çürük və laxlamış sütunlarını daha da sarsıtdı. Aprel döyüşləri Sarkisyan rejiminə elə böyük zərbə oldu ki, onlar iki il ərzində bu zərbədən özünə gələ bilmədilər və əlbəttə, uzun illər yaratdıqları mif, - guya onların ordusu güclü ordudur, - darmadağın edildi" deyən Cənab Prezidentimiz iclasdakı nitqində bir daha Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xatırladıb, həmin qətnamələrin qüvvədə olduğunu və icrasının vacibliyini bəyan edib."

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, bu ilin ən önəmli hadisələrindən biri də "Cənub Qaz Dəhlizi" layihəsinin açılış mərasiminin keçirilməsi, eyni zamanda, TANAP-ın işə salınması oldu: "Qeyd etdiyimiz bu mühüm hadisələr regional müstəvidən çıxaraq qlobal xarakter daşımağa başlayıb. Azərbaycan-Türkiyə qardaşlığının, birliyinin məhsulu olan bu layihələr Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Ölkəmizin təşəbbüsü və iştirakı ilə icra edilən, XXI əsrin layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi" və onun əsas seqmenti olan TANAP bütün dünyanın diqqət mərkəzindədir. Bu layihələrin tam şəkildə işə düşməsi nəticəsində, nəinki Azərbaycan və Türkiyə, qonşu ölkələr, eyni zamanda, Avropa dövlətləri qazanc əldə edəcəklər. Bir sözlə, Azərbaycanın müəllifi olduğu layihələr hər zaman olduğu kimi, yenə də regiona və dünyaya, inkişaf, sülh və sabitlik vəd edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı qeyd edib ki, həm "Cənub Qaz Dəhlizi"nin, həm TANAP layihəsinin istifadəyə verilməsi tarixi hadisələrdir. Bunlar dünyada da çox böyük əks-səda yaradan layihələrdir."

Vüqar Rəhimzadə onu da bildirib ki, dövlətimizin başçısı iclasdakı çıxışı zamanı sosial siyasət sahəsində qarşıda duran vəzifələr, həmçinin, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin daha ciddi şəkildə aparılmalı olduğunu vurğulayıb: "Bu gün ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Möhtərəm Prezidentimiz də bütün çıxışlarında bunu bəyan edir. Ona görə də, bu gün ölkəmizdə mühüm sosial islahatlar həyata keçirilir. Eyni zamanda, korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır. Dövlətimizin başçısı bildirib ki, aprel ayında formalaşmış yeni hökumətin qarşısında bu vəzifə çox kəskin qoyulub. Bu, xoşagəlməz hallara tamamilə son qoyulmalıdır."

# Bəhruz Quliyev: "İki sahil" qəzeti ölkə mətbuatının şərəf və əqidə simvollarından biri olaraq qiymətləndirilir"



"Əsrin dörddə birini geridə qoyan "İki sahil" qəzeti artıq 27 ilin zirvəsindən keçilən yola əzmlə, qürurla baxır". Bu fikirləri SİA-ya "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev "İki sahil" qəzetinin yaranmasının 27-ci ildönümü ilə bağlı fikirlərini şərh edərkən deyib. Onun sözlərinə görə, qəzet 27 illik fəaliyyəti ilə böyük yol keçib və onun səhifələrini vərəqləyənlər ötən illər ərzində yaddaqalan, əlamətdar, maraqlı hadisələrlə bağlı çoxsaylı yazı və məqalələrlə tanış ola bilərlər: "Əbəs deyil ki, "İki sahil" qəzeti kifayət qədər çətin tarixi bir şəraitdə yaranıb. 1990-1991-ci illərdə Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Respublikada özbaşınalıq, mətbuata təzyiqlər, azad sözün boğulması adi hala çevrilmişdi. Məhz bu dövrdə nəşrə başlayan "İki sahil" qarşıda dayanan ağır çətinliklərə baxmayaraq, dövlətçilik və milli maraqlar uğrunda əzmlə mübarizə aparır, oxucuları doğru və dəqiq informasiyalarla təmin edirdi. Həmin dövrlərdə "İki sahil" öz səhifələrində reallıqları olduğu kimi oxuculara çatdırmaqdan, Azərbaycanın xilaskarının Ümummilli Lider Heydər Əliyev olduğunu qətiyyətlə bəyan edirdi. "İki sahil" qəzeti ölkə mətbuatının şərəf və əqidə simvollarından biri olaraq qiymətləndirilir. Çünki qəzet nəşrə başladığı ilk gündən Ulu Öndər Heydər Əliyevin ideyaları, azərbaycançılıq məfkurəsi qəzetin əsas prinsiplərinə çevrilmişdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan dahi şəxsiyyət Heydər Əliyev, bütün sahələr kimi, müstəqil mətbuatın inkişafına da xüsusi diqqət və qayğı göstərdi. Mətbuat azadlığının inkişafına əngəl olan süni maneələr aradan qaldırıldı, bu sahədə mükəmməl qanunvericilik bazası yaradıldı. Əbəs deyil ki, Heydər Əliyev YAP-ın yaradılmasının ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində "İki sahil" qəzetinin rolunu yüksək dəyərləndirərək deyib: "O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm". Bəli, bu bir həqiqətin, reallığın təntənəsi idi ki, Ulu Öndər onu ən yüksək səviyyədə tərənnüm etmişdi".

"Təbii ki, bütün bunlar və qəzetin keçdiyi 27 illik tarixi və şərəfli yoluna verilən qiymətdə qəzetin baş redaktoru Vüqar Rəhimzadənin də nəhəng payı vardır"-deyə vurğulayan "Səs" qəzetinin baş redaktoru bildirib ki, istər zamanında onunla çalışmış, istərsə də hazırda çalışan jurnalistlər onlara verilən bu böyük dəyərdən bəhrələnir, iftixar hissi keçirirlər: "Ümumiyyətlə, bu uğurlar birgə səylərin, yorulmazlığın və dönməz əqidənin məhsuludur, bəhrəsidir. İnkişafı, yeniliyi, təbliğ etməyi qarşısına məqsəd qoyan "İki sahil"in fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək dəyərləndirilir. Ötən dövrdə qəzetin əməkdaşları "Əməkdar jurnalist" fəxri adına və "Tərəqqi" medalına layiq görülüblər, mənzillərlə mükafatlandırılıblar. Əlbəttə ki, biz media adamları əminliklə vurğulaya bilərik ki, "İki sahil" qəzeti qətiyyətlə öz əqidəsinə sadiq qalmaqla yanaşı, bundan sonra da çoxəsrlik dövlətçilik ənənələrinin, milli mənəvi dəyərlərimizin, həqiqətlərimizin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında səylə çalışacaq, üzərinə götürdüyü müqəddəs missiyanı uğurla yerinə yetirəcək. Bu münasibətlə "İki sahil" qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, davamlı nailiyyətlər və uğurlar diləyirəm".

*"SƏS"*

# Fond rəhbəri: "Yadellilər, sui-qəsdçilər hər zaman elə Gəncədə məğlub olublar"



"Gəncə şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı sui-qəsd ətrafında kimlərinsə suyu bulandırmaq, bu hadisəni daxili siyasi proseslərə proeksiya edərək divident qazanmaq, yaxud manipulyasiya etmək, ictimai rəyi yanıltmaq cəhdləri açıq hiss olunur. Çox təəssüf ki, keçmişin dərslərindən ibrət götürülmür və siyasi həvəskarların, ölkə kənarından hər fürsətdə işarə gözləyənlərin, situasiyadan asılı olaraq, Şimal yaxud Cənuba istiqamətlənənlərin, sərbaz, yaxud kazak çəkməsi həsrəti yaşayanların illüziyalarının bu ölkəyə necə baha başa gəldiyi unudulur". Bunu SİA-ya Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev deyib.

Onun sözlərinə görə, kölgəsiz yaşaya bilməyənlər, əcnəbi əsgərin süngüsünü, diplomatın bəyanatını özü üçün ən yaxşı dayaq hesab edənlər yenə iş başındadır: "Azərbaycan tarixi ibrət götürməli epizodlarla o qədər zəngindir ki, yalnız əbləhlər bunu qulaqardına vura bilər. Bu əbləhlər Gəncəni yenə siyasi anarxiyanın episentrinə çevirməyə can atırlar. Amma unudurlar ki, anarxistlər, yadellilər, sui-qəsdçilər hər zaman elə Gəncədə məğlub olublar. Gəncə elə vahid, bölünməz, ən başlıcası suveren Azərbaycan ideyasının rəmzlərindən biridir. Gəncəlilər də Azərbaycanın müstəqilliyinin ən sadiq, cəsur, mərd fədailərdir. Gəncə, gəncəlilər dövlət və dövlətçiliyin qorunması, kənar müdaxilələrə qarşı müqavimətdə ən möhkəm sipərdi. Heç şübhə etimirik ki, bu dəfə də onlar tarixi missiyalarına sadiq qalaraq dövlətçilik ənənələrinə necə bağlı olduqlarını hər kəsə sübut edəcəklər.

# Gələn il 10 xalça fabriki istifadəyə veriləcək

2019-cu ildə Azərbaycanda 10 xalça fabriki istifadəyə veriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərxalça" ASC-nin idarə heyətinin sədri Vidadi Muradov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bununla da xalça fabriklərinin sayı 30-a çatdırılacaq. Həmçinin bildirib ki, 2017-ci ilin dekabrında Sumqayıt Kimya Sənaye Parkında təməli qoyulan Yunəyirici Boyaq fabrikinin inşasının 2019-cu ildə başa çatdırılması planlaşdırılır.

# Dövlət Sərhəd Xidməti Akademiyasının məzunlarının buraxılış mərasimi keçirilib

***2018-ci ildə yaradılmasının 11-ci ildönümünü qeyd edən Dövlət Sərhəd Xidmətinin Akademiyası böyük inkişaf yolu keçərək, qabaqcıl hərbi təhsil müəssisəsi səviyyəsinə yüksəlmişdir.***

Bu müddət ərzində DSX-nin Akademiyasında Azərbaycan dövlətçiliyinə sədaqətli, peşəkar sərhədçi zabitlərin hazırlanması, hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsi, dövlət sərhədinin mühafizəsi və hərb sahəsində elmi tədqiqatların aparılması üçün mükəmməl elmi-pedaqoji potensial və ən yüksək standartlara cavab verən maddi-texniki baza formalaşdırılmışdır.







Dünən Dövlət Sərhəd Xidməti Akademiyasının məzunlarının təntənəli buraxılış mərasimi keçirilmişdir. Ənənəvi olaraq, möhtəşəm Dövlət Bayrağı Meydanında təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti, Bakı qarnizonu hərbi hissələrinin hərbi qulluqçuları, gənc zabitlərin valideynləri və ailə üzvləri iştirak etmişlər.

Mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev gənc zabitləri təbrik etmiş, onlara xidmətdə uğurlar arzulamış, tövsiyə və tapşırıqlarını vermiş, Azərbaycanın hər bir sərhədçisi kimi onların da dövlətçilik ənənələrinə daim sadiq olacaqlarına, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında dövlət sərhədlərinin etibarlı mühafizəsi naminə əzmlə xidmət edəcəklərinə, Azərbaycan sərhədçisi adını daima uca tutacaqlarına inamını ifadə etmişdir.

General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin təkcə 2018-ci il ərzində 2 dəfə Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrinə səfərlərinin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın DSX-nin Xüsusi Məktəbinin yeni korpusunun açılış mərasimində iştirakının Dövlət Sərhəd Xidmətinə göstərilən ali diqqətin növbəti ifadələri olmasını xüsusi vurğulamışdır.

Azərbaycan Sərhəd Mühafizəsinə göstərilən bu qayğı sayəsində əldə olunmuş xidməti nailiyyətlərdən danışan general-polkovnik Elçin Quliyev dövlət bayrağımızın qısa müddətdə işğaldan azad olunacaq şəhər və kəndlərimizdə dalğalanacağını, Heydər Əliyev dövlətçiliyinin əsgəri olan Azərbaycan sərhədçilərinin Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə icra etməyə hər an hazır olmalarını bildirmişdir.









Akademiyanı bitirən leytenantlara diplomlar təqdim olunmuş, gənc zabitlər "Sərhədçi andı"nı qəbul etmişlər. Tədbirin sonunda zabitlər və kursantlar təntənəli marşla tribunanın önündən keçmişlər.

Mərasimdən sonra gənc zabitlər Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət etmişlər.

***ZÜMRÜD***

# Səbaildə Ümummilli Lider Heydər Əliyevin 95 illiyi qeyd olunub

***Azərbaycan dövlətçiliyi ideyasının yaşaması və sonradan yenidən reallaşdırılması birbaşa olaraq, 1969-cu ildə respublikamızda ilk dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dünən Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 49 illiyi münasibəti ilə Səbail rayonunun idarə, təşkilat və müəssisələrində müxtəlif tədbirlər keçirilir.***



Həmin tədbirlərdən biri də Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin "Şəhidlər Xiyabanı"ndakı qərargahında Səbail rayon icra hakimiyyəti, YAP Səbail rayon təşkilatı, rayonun ağsaqqallar, veteran təşkilatları şuralarının, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin, rayondakı bir sıra ictimai təşkilatların, QHT-lərin, rayon ictimaiyyətinin nümayəndələrinin və digər qonaqların iştirakı ilə tədbir keçirilib. Tədbirin əvvəlində Ulu Öndərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.

Səbail rayon icra hakimiyyəti başçısının müavini Eldar Ağayev tədbir iştirakçıları və qonaqları salamlayaraq, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi, fəaliyyəti ilə bağlı çıxış edərək bildirib ki, 49 il əvvəl - 1969-cu il iyul ayının 14-də Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilmişdir: "Həmin gündən etibarən Azərbaycanın inkişafında böyük dönüş və tərəqqi başlandı. Dahi Liderin səyləri, bilik və bacarığı, gərgin əməyi sayəsində bir zamanlar keçmiş Sovetlər İttifaqının geridə qalmış aqrar respublikası olan Azərbaycan sənaye və kənd təsərrüfatının geniş inkişaf etdiyi bir qabaqcıl respublikaya çevrildi".

E.Ağayev onu da vurğulayıb ki, 1993-cü ildə xalqın tələbi və təkidi ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldikdən sonra Böyük Lider Heydər Əliyev Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan qorudu, xalqımızın xilaskarına çevrildi və bu gün Ulu Öndərin əsasını qoyduğu siyasət Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Toplantıda YAP Səbail rayon təşkilatı idarə heyətinin üzvü Həcan Hacıyev, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Səbail rayon təşkilatının sədri İlham Əliyev, Azərbaycan Respublikası Veteranlar Şurası sədrinin müavini, polkovnik Cəlil Xəlilov, Səbail RİHBA-nın şöbə müdiri Anar Axundzadə, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədri Fizuli Rzaquliyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin məsul işçisi Rasim Mirzəyev və başqaları Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyində çalışdığı illər ərzindəki fəaliyyəti və gördüyü işlərdən danışaraq qeyd ediblər ki, Səbail rayonunun ağsaqqaları, veteranları, digər ictimai təşkilatların üzvləri Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin Azərbaycanın inkişaf və tərəqqisinin gün-bəgün artması, onun qüdrətli və zəngin bir dövlətə çevrilməsi və ən başlıcası itirilmiş torpaqlarımızın geri qaytarılması istiqamətində apardığı işləri bəyənir və bu işlərdə Ona hər zaman dəstək olacaqlar.

*Rəfiqə HÜSEYNOVA*

# Elçin Mirzəbəyli: "Azərbaycan xalqı dayanıqlı inkişafın, milli maraqlarımızın qorunmasına xidmət edən siyasətin yanındadır"

***Son 15 il ərzində Azərbaycanda təkcə ölkəmizin deyil, bütövlükdə regionun davamlı inkişafına səbəb olan bir sıra mühüm layihələr həyata keçirilib.***



Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Cənub Qaz Dəhlizi, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri kimi meqalayihələrin həyata keçirilməsi, Azərbaycanın tranzit imkanlarının artırılması və qlobal logistik mərkəzə çevrilməsi istiqamətində ciddi addımlar atılıb. Ölkədə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilib, infrastruktur yenilənib, yeni iqtisadi layihələrin həyata keçirilməsi, qeyri-neft sektorunun diversifikasiyası, ölkəyə xarici sərmayənin cəlb edilməsi üçün əlverişli şərait yaradılıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib. O bildirib ki, ordu quruculuğu, müdafiə sənayesi kompleksinin yaradılması və inkişaf etdirilməsi istiqamətində böyük uğurlar əldə edilib. Azərbaycan Silahlı Qüvvələri ən müasir silah-sursat və hərbi texnika ilə təchiz edilib. Sistemli, ardıcıl və planlı şəkildə keçirilən hərbi təlimlər nəticəsində Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti yüksəldilib və Azərbaycan Ordusu dünyanın ən yaxşı orduları sırasında yer alıb.

E.Mirzəbəylinin sözlərinə görə, Azərbaycan dövləti vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin, çoxpartiyalı sistemin, elmin, mədəniyyətin inkişafına hərtərəfli dəstək verib. Bu məqsədlə Qeyri-Hökumət Təşkilatlarının İnkişafına Dövlət Dəstəyi Şurası, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, elm və bilik fondları və s. bu kimi ən müxtəlif sahələrin dövlət tərəfindən dəstəklənməsinə imkan verən təsisatlar yaradılıb və sadalanan istiqamətlərdə ciddi nəticələr əldə edilib.

Azərbaycan Prezidentinin yürütdüyü çoxvektorlu siyasətin nəticəsi olaraq ölkəmizin qlobal problemlərin müzakirə olunduğu beynəlxalq platformaya çevrildiyini deyən ekspert vurğulayıb ki, ölkəmizin təşəbbüsü ilə bir sıra uğurlu regional əməkdaşlıq formatları, o cümlədən Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-İran-Gürcüstan, Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-Pakistan və s. bu kimi üçtərəfli, dördtərəfli əməkdaşlıq formatları yaradılıb və bu formatlar çərçivəsində qurulan münasibətlər artıq özünü bir sıra mühüm istiqamətlərdə, xüsusilə də iqtisadi əməkdaşlığın genişləndirilməsi müstəvisində büruzə verməkdədir.

Elçin Mirzəbəyli qeyd edib ki, bu illər ərzində Azərbaycan multikultural dəyərlərin təşəkkül tapdığı ölkə statusunu möhkəmləndirməklə yanaşı, həm də müsəlman ölkələrinin həmrəyliyinə nail olunmasına ciddi töhfələr verib. Azərbaycan Prezidenti tərəfindən elan olunan "İslam Həmrəyliyi İli" çərçivəsində ölkəmizdə bir sıra mühüm tədbirlər, o cümlədən İslam Həmrəyliyi Oyunları, müsəlman xalqlarının qarşısında dayanan problemlərin müzakirə olunduğu beynəlxalq konfranslar keçirilib. Bütün dünyaya İslamın sülh və mərhəmət dini olması barədə mühüm mesajlar verilib. Son 15 il ərzində Azərbaycan o qədər sürətlə inkişaf edib ki, ən müxtəlif sahələrdə əldə olunan nəticələri sıralamaq mümkün deyil. Həyata keçirilən bütün islahatlar, atılan addımlar isə Azərbaycanın geosiyasi önəminin artırılmasına, təhlükəsizliyinin təmin edilməsinə, xalqımızın dinc və rifah içində yaşamasına xidmət edib. Lakin bu, yolun yalnız başlanğıcıdır. Bu günə qədər atılan addımlar gələcək inkişaf üçün təməl rolunu oynayır.

Ekspert, həmçinin əlavə edib ki, dövlətimizin qarşısında daha böyük hədəflər var. Bu hədəflərin həyata keçirilməsi üçün isə qarşılıqlı etimad üzərində qurulan xalq-dövlət münasibətləri mövcuddur. Azərbaycan vətəndaşları öz dövlətinə güvənir, onu sevir, ölkəmizdə sabitliyin qorunması, davamlı inkişafa nail olunması üçün fədakarlıq nümayiş etdirirlər. Xalq-iqtidar birliyi sarsılmazdır və bütün çətinliklərə əzmlə sinə gərmək üçün yetərlidir. Azərbaycan xalqı sabitliyin, sistemli islahatların, dayanıqlı inkişafın, milli maraqlarımızın qorunmasına və təmin olunmasına xidmət edən siyasətin yanındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı keçirilən tədbirlər çərçivəsində vətəndaşlarımızın nümayiş etdirdiyi ruh yüksəkliyi, dövlətçilik tariximizə və ənənələrimizə sevgi, yüksək vətənpərvərlik nümunələri sübuta yetirir ki, heç bir qaranlıq qüvvə müqəddəs istiqlalımızın üzərinə kölgə sala bilməz.



## Terror simpatiyası bir nömrəli satıb-satılan Əli Kərimlinin qanındadır

RƏFİQƏ

***Ölkədə baş verən istənilən ən kiçik hadisəyə, hətta məişət olayına belə, siyasi don geyindirmək AXCP sədri kimi tanınan bədnam məxluq -Əli Kərimlinin köhnə şakərlərindəndir. Ona görə köhnə şakərlərindəndir ki, bu fərd "siyasi fəaliyyətini", məhz bu kimi məsələlər üzərində quraraq, şəxsi dividendlərini güdür. Bu gün də Gəncə icra hakimiyyətinin başçısına Gəncədə baş verən olayın terror hadisəsi olduğu təkzibolunmaz faktlarla ictimaiyyətə bəlli olduğu halda, hadisəni törətmiş Yunis Səfərov kimi antimilli ünsürlər və o cümlədən, satqın Əli Kərimli sosial şəbəkələrdə cəmiyyətə "qəhrəman" kimi təqdim edilir.***

Əslində, bu təəccüb də doğurmur. Hətta sabah kimsə özünü, nakam sevgisi səbəbindən, Xəzər dənizinə atsa belə, yenə də Ə.Kərimli düşəcək ortaya ki, bunun günahı hakimiyyətdədir (?!-R.H). Bu baxımdan, belə bir tərzdə tərsinə düşünənlərə insan deyil, məxluq deyirlər. Çünki məxluqlarda normal anlama, hadisəni təhlil etmək və şüur qabiliyyəti olmur.

**Yazsın və etiraf etsin ki, onun "vicdanına" nə qədər Vətən övladının günahsız qanı hopub!!!**

Bu yerdə tərsinə düşünən məxluq Ə.Kərimlidən "vicdan" deyilən amil də uzaqdır. Çünki məxluqlarda normal anlama, hadisəni təhlil etmək və şüur qabiliyyəti olmur. Belə ki, yaxşı olardı ki, məxluq Əli Kərimli "alabaş" avtobuslarına doldurularaq, hərbi bilgisi olmayan gəncləri, yeniyetmələri, hətta hərbi komissarlıqların xəbəri olmadan qaynar cəbhə bölgələrinə göndərərək, təpədən-dırnağadək silahlanmış rus-erməni hərbçilərinin qabağına yollamaları haqda çox sevdiyi facebook sosial şəbəkəsində yazsın. Yazsın və etiraf etsin ki, onun "vicdanına" nə qədər Vətən övladının günahsız qanı hopub!!!

Yazmır... Çünki bilir ki, ləyaqətsizlik və şərəf amilindən uzaq olan mövcudluğu, belə olan halda, sərt cavab alacaq. Bir də, əslində, Ə.Kərimlinin nə isə yazıb-yazmaması ondan fərqli olaraq normal düşünməyi bacaran, hadisələrə düzgün qiymət verən sağlam ruhlu ictimaiyyəti qətiyyən maraqlandırmır və buna ehtiyac da yoxdur. Bu səbəbdən də, adıçəkilən məxluqun hər hansı "düşüncəsi" elə onun özü kimi tərs düşünən məxluqların marağında ola bilər ki, bu da çox maraqsız və cılız məsələdir. Çünki terror simpatiyası bir nömrəli satıb-satılan Əli Kərimlinin qanındadır.

# Ermənistanın gələcəyi işğal siyasətinə son qoyulmasından keçir

*Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirovun yap.org.az-a müsahibəsi*

***- Elman müəllim, ilk öncə Mingəçevirdəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nda baş verən qəza və onun aradan qaldırılması üçün həyata keçirilən tədbirlərlə bağlı fikirlərinizi bilmək istərdik. Ölkə Prezidentinin yanında keçirilən müşavirədə ölkənin enerji sistemindəki vəziyyət geniş təhlil olundu. Müşavirədə qaldırılan məsələlər barədə nə deyə bilərsiniz?***



- Bildiyiniz kimi, Mingəçevir İstilik Elektrik Stansiyasında baş vermiş qəzadan sonra ölkənin energetika sahəsində ciddi problem yaşandı. Lakin müvafiq qurumların proseslərə müdaxiləsi nəticəsində bu, uzunmüddətli olmadı. Ümumilikdə görülmüş işlər nəticəsində paytaxt Bakı da daxil olmaqla, Azərbaycanın digər ərazilərinə elektrik verilişi bərpa olundu, həyatın bütün sahələrində normal iş fəaliyyəti yenidən öz ahəngində davam etdirildi. Hadisədən dərhal sonra Prezidentin mətbuat xidməti məlumat yayaraq, məsələnin dövlət başçısının daim nəzarətində olduğunu bəyan etdi. Bununla yanaşı, prezident İlham Əliyev "Azərbaycan İstilik Elektrik Stansiyası"nın yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam imzaladı.

Dövlət Komissiyasının qarşısında dayanan əsas vəzifə hadisənin baş verməsi səbəblərini araşdırmaq və bu barədə Prezidentə məlumat vermək idi. Eyni zamanda, bu komissiya qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirməli və həyata keçirməli, görülmüş işlər haqqında dövlət başçısına mütəmadi məlumat verməlidir. Bununla yanaşı, Baş Prokurorluq baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirləri həyata keçirəcək. İyulun 4-də isə Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemindəki vəziyyətə dair müşavirə keçirildi, dövlət başçısının sərəncamı ilə yaradılmış komissiyaya daxil olan şəxslərin məruzələri dinlənildi. Ümumi olaraq gəlinən qənaət budur ki, Mingəçevirdəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nda baş vermiş qəzaya həm əlaqədar qurumlar, həm də hökumət və dövlət rəhbərliyi çevik reaksiya verib. Bunun nəticəsində hadisənin fəsadları tez bir zamanda aradan qaldırılıb.

Bu müşavirədə "Azərbaycan İstilik Elektrik Stansiyası"da baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyası üzvləri ayrı-ayrılıqda hesabatla çıxış etdilər. Müşavirənin keçirilməsində başlıca məqsəd qəzanın səbəblərini, nəticələrini araşdırmaqdan, bundan irəli gələn məsələlərin müzakirəsindən ibarət idi. Dövlət başçısı İlham Əliyev son illər ərzində Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulduğunu vurğuladı. Diqqətə çatdırıldı ki, son 15 il ərzində Azərbaycanda 30 yeni elektrik stansiyası istifadəyə verilib, 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilib. Bunun nəticəsində Azərbaycanın hazırkı enerji potensialı 6400 meqavata çatdırılıb. Bunun 2500 meqavatı son 15 il ərzində yaradılıb. Ölkə başçısı Azərbaycanın bütün bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında yeni elektrik stansiyalarının tikildiyini, həmçinin su elektrik stansiyalarının yaradıldığını söylədi. O qeyd etdi ki, enerji sisteminin dayanıqlılığı təmin edilsin deyə, mühüm işlər görülsə də, bir qəza nəticəsində bütün enerji sistemi sıradan çıxıb. Dövlətimizin başçısı bu məsələnin çox ciddi suallar yaratdığını vurğuladı. O, bu suallara cavab verilməsinin zəruriliyini bildirdi. Dövlət Komissiyasından tələb edildi ki, bu suallara tezliklə cavab tapılsın, ciddi araşdırma aparılsın, indiki vəziyyəti şərtləndirən amillər üzə çıxarılsın. Prezident müşavirədəki çıxışında birmənalı olaraq bildirdi ki, ciddi araşdırmaların aparılması nəticəsində günahkarlar müəyyən edilərək məsuliyyətə cəlb olunmalıdır. Prezident İlham Əliyev yaranmış gərginlik fonunda əhalinin göstərdiyi mövqeyə, səfərbər olmuş cəmiyyətə, vətəndaş həmrəyliyinə və dövlət başçısının siyasi kursunu dəstəklədiyinə görə xalqımıza minnətdarlığını bildirdi. O, baş verənlərin eyni zamanda sınaq olduğunu və Azərbaycan xalqının bu sınaqdan şərəflə çıxdığını dilə gətirdi. Bu, bizim böyük nailiyyətimizdir. Bununla yanaşı, dövlət başçısı hadisə baş verən sektora görə məsuliyyət daşıyan məmurları kəskin tənqid etdi. Bildirdi ki, onların səhlənkarlığı ucbatından bu qəza baş verib. Nəticədə bu isti havada insanlara əziyyət verilib, iqtisadiyyata böyük ziyan vurulub. Bütün bunlar prezidentin baş verənləri şəxsən nəzarətdə saxladığını növbəti dəfə nümayiş etdirdi. Qeyd olundu ki, Dövlət Komissiyası xüsusi tədbirlər planı hazırlamalı, Azərbaycan xalqı gələcəkdə bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özünü qoruya bilməlidir.

***- Son illər Azərbaycan regionda böyük layihələrin müəllifi kimi çıxış edir. Bu layihələr ölkəmizə nə kimi dividendlər gətirir?***

- Müstəqil Azərbaycanın sosial və iqtisadi sahələrdə dinamik inkişafı prosesində Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə işləyib hazırladığı neft strategiyasının uğurla həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə neft-qaz sənayesinin "Əsrin müqaviləsi" ilə başlayan sürətli inkişafı milli iqtisadiyyatımızın və bütövlükdə, ölkənin inkişafının əsas faktor kimi çıxış edib. "Əsrin müqaviləsi"nin və digər layihələrin uğurla həyata keçirilməsi Azərbaycanın gücünü o səviyyədə artırıb ki, hazırda ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan bir ölkəyə çevrilib.

Azərbaycanın fəal iştirakı ilə reallaşdırılan yeni layihələr Avropanın enerji xəritəsini dəyişir ki, bu da olduqca qürurverici haldır. Bilirsiniz ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə son illər böyük layihələr reallaşdırılır. Ötən ay açılışı keçirilən "TANAP layihəsi "Cənub Qaz Dəhlizi"nin mühüm elementidir. Azərbaycanın təşəbbüsü ilə reallaşan bu layihə ölkəmizin beynəlxalq aləmdə, Avrasiyada mövqelərinin möhkəmlənməsinə müsbət təsir göstərir. Bu ilk növbədə enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. TANAP həm də azad rəqabət, enerjinin şaxələndirilməsi layihəsidir. Dövlət başçısı dəfələrlə qeyd edib ki, meqalayihə bütün tərəflərin qazanc əldə etməsinə şərait yaradır. TANAP nəticə etibarı ilə çoxtərəfli əməkdaşlığın formalaşmasına gətirib çıxaran layihədir.

Bütövlükdə "Cənub Qaz Dəhlizi" ətrafında Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, İtaliya, Yunanıstan və Albaniya kimi ölkələrin sıx əməkdaşlığı formalaşıb. Balkanlardan Bosniya və Hersoqovina, Xarvatiya və Monteneqro da memorandum imzalayaraq, layihənin potensial iştirakçıları olublar. Əlavə olaraq, Rumıniya və Türkmənistan da layihəyə ciddi maraq göstərir. Görünən odur ki, "Cənub Qaz Dəhlizi" öz təsdiqini tapır dünya üçün böyük önəm kəsb edir.

TANAP-ın işə düşməsi ilə Azərbaycan qazı Türkiyənin Qara dəniz sahillərinə qədər gətirilir. Bundan sonra isə TAP layihəsi ilə qazın Yunanıstana ötürülməsi reallaşdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyi üçün mühüm olan layihənin həyata keçirilməsinə vəsiqə verilir. Azərbaycan Avropa üçün yeni alternativ enerji mənbəyi rolunu oynayacaq. 2020-ci ildə 16 milyard qazın satışı gözlənilir. 2026-cı ildən başlayaraq, qazın ixracı daha da yüksələrək, 30 milyard kubmetrə çatdırılması proqnozlaşdırılır".

***- İşğalçı Ermənistan bütün bu layihələrdən kənarda qalır...***

- Ermənistan təcavüzkar siyasəti nəticəsində Azərbaycanın təşəbbüskarı olduğu Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərindən və indi də Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsindən kənarda qaldı. Ermənistanın iqtisadi blokadası güclənəcək və bu ölkədən miqrant axını, eləcə də yerli əhalinin yoxsulluq səviyyəsi daha da artacaq.

Təsadüfi deyil ki, Ermənistanda həm enerji, həm də Bakı-Tbilisi-Qars layihəsinin reallaşmasına bir faciə kimi yanaşırlar. Amma əslində bu faciəni özləri yaradırlar. İşğala son qoysunlar, onun nəticələrini aradan qaldırsınlar və bundan sonra Ermənistanın bu layihələrdə iştirakı məsələsinə baxıla bilər. Prezident İlham Əliyevin dediyi kimi, nə qədər ki bu təcavüzə son qoymayıb, Ermənistanın təcrid siyasəti daha da gücləndiriləcək: "Biz bu gün onun şahidi oluruq. Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir. Haqq-ədalət öz yerini tapdı və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovuldu. Deyə bilərəm ki, bu rejimin çökməsində bizim də rolumuz olub, onu mən şişirtmək istəmirəm, bunu biz, necə deyərlər, öz adımıza çıxmaq istəmirik. Ancaq o da həqiqətdir ki, bizim apardığımız siyasət nəticəsində Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edildi. Biz onlara qarşı təcrid siyasətimizi uğurla aparmışıq və heç kimdən çəkinmədən mən bu barədə dəfələrlə Azərbaycan ictimaiyyətinə və xarici tərəfdaşlarıma demişəm. Nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq. Bu siyasət nəticəsində Ermənistan iqtisadi iflasa uğradı."

***- Elman müəllim, ümumiyyətlə, Ermənistanın yeni hakimiyyətinin Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı mövqeyini necə şərh edərdiniz?***

- İşğalçı Ermənistanın yeni hakimiyyəti Sarkisyanın vəziyyətindən dərs çıxarmalıdır. Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikirləri, onun işğal olunmuş ərazilərimizə səfəri münaqişənin sülh yolu ilə həllinə xidmət etmir. Həmçinin, o, aparılan danışıqlarda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin tərəf kimi iştirakını təklif etməklə özünə dividend qazanmaq istəyir.

Əslində, Paşinyan bu sərsəm və absurd fikirləri ilə münaqişənin nizamlanması ilə bağlı danışıqları yubatmaq istəyir. Ermənistan iflas vəziyyətindədir, ölkə onsuz da kifayət qədər zəifləyib, etirazlar dalğasından sonra isə tam çıxılmaz hala düşüb. Belə vəziyyətdə olan Ermənistanla inkişaf etmiş Azərbaycanın danışıqlara getməsi bu ölkə üçün faciəli ola bilər. Ona görə də Paşinyan vaxt udmaq istəyir. Amma başa düşməlidir ki, Ermənistanın gələcəyi işğal siyasətinə son qoyulmasından keçir. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyincə, heç bir perspektivə nail ola bilməyəcək.

## Qulamrza Ənsari:
## Astara-Rəşt dəmir yolu iki qonşu və dost dövlətin iqtisadi əlaqələrini daha da artıracaq



Azərbaycan Astara-Rəşt dəmir yolunun inşasının davam etdirilməsi üçün 500 milyon dollar kredit ayırıb. Bu yolun tikilib başa çatdırılması iki qonşu və dost dövlətin iqtisadi əlaqələrini daha da artıracaq. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın xarici işlər nazirinin beynəlxalq iqtisadi əlaqələr üzrə müavini Qulamrza Ənsari Astara şəhərinə səfəri zamanını deyib. Q.Ənsari diqqətə çatdırıb ki, Astara-Rəşt dəmir yolu xətti "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tamamlanması üçün əsas yoldur. Bu yol Fars körfəzi ilə Qərbi Avropa ölkələrini nəqliyyat baxımından birləşdirəcək. Regionun iqtisadi inkişafına böyük təkan verəcək. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi yalnız İran və Azərbaycanın deyil bu marşrut ilə ixrac-idxal əməliyyatlarını həyata keçirərək ticarət dövriyyəsini artıran digər region dövlətlərinin də inkişafında əhəmiyyətli rol oynayacaq. Onun sözlərinə görə bu dəmir yolu Bəndər-Abbas-Qəzvin, Qəzvin-Rəşt, Rəşt-Astara şəhərlərini birləşdirəcək.

# İctimai və dövlət maraqlarının müdafiəsi müasir dövrün ən mühüm məsələlərindən biridir

***Dövrümüzdə hər bir ölkənin vətəndaşlarının yüksək səviyyədə yaşaması, xalqın rifahı müstəqil dövlətin olması və inkişafı ilə mümkündür. Çünki müstəqil dövlət öz xalqının yüksək şəraitdə yaşaması, sosial vəziyyətinin yaxşılaşdırılması üçün gecə-gündüz çalışır. Ancaq müstəqil olmayan ölkələr isə xalqa deyil, müəyyən dairələrə, müstəmləkə sahiblərinə xidmət edir. Məhz öz ölkəsini, xalqını düşünən hər bir insan ictimai və dövlət maraqlarını üstün tutmalı və ölkəsinin inkişafı istiqamətində fəaliyyət göstərməlidir.***

Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra onun qorunub saxlanılmasını təmin edən Ulu Öndər Heydər Əliyev ölkəmizin inkişafı, heç bir dövlətdən asılı olmaması üçün misilsiz xidmətlər göstərib. Məhz dahi şəxsiyyətin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan bu gün dünyada söz sahibi olan, müstəqil siyasət yürüdən, vətəndaşlarının yüksək səviyyədə yaşadığı ölkəyə çevrilib. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir və Azərbaycanın dünyada daha nüfuzlu ölkəyə çevrilməsi və xalqın rifahının yaxşılaşdırılması istiqamətində gecə-gündüz yorulmadan çalışır.

Bütün bu inkişafın kökündə dövlətimizin müstəqil siyasət yürütməsi, vətəndaş cəmiyyətinin inkişafı üçün yüksək şəraitin yaradılması durur. Ölkəmizdə dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyası çərçivəsində təkmilləşməkdədir. Ümummilli Liderin irəli sürdüyü bu konsept dövlət və cəmiyyət maraqları və fərdin mənəvi maraqlarının vəhdəti kimi bütün azərbaycanlıları birləşdirən zəruri, güclü bir zəmin rolunu oynayıb. Azərbaycanda mövcud dövlətçilik modelinin ən uğurlu istiqamətlərindən biri digər dövlətlərlə bütün sahələrdə münasibətdə öz milli maraqlarından çıxış etməsidir.

İctimai-dövlət maraqlarının ön planda saxlanması çox aktual məsələ kimi qarşımızda dayanır. İctimai maraqlar cəmiyyətin hər bir təbəqəsinin rəyini əks etdirir. Bu gün ictimai maraq dövlətçilik şüurunun daha da güclü inkişaf etdirilməsi, cəmiyyətə aşılanmasını tələb edir. İctimai maraq dedikdə, bütünlükdə cəmiyyət, yaxud cəmiyyətin müxtəlif sosial qrupları tərəfindən ortaq hesab etdiyi maraq və mənafelər başa düşülür. İctimai maraqlarla fərdi və qrup maraqlarının uzlaşdırılması mədəniyyətinin təşəkkül tapması hər bir toplum üçün həyati vacib amillərdən və harmonik inkişafın əsas şərtlərindən biridir. Amma müasir dövrün şərtləri, qloballaşma dövlət və ictimai maraqların təmin olunması istiqamətində yeni vəziyyət yaratmaqla yeni yanaşma tələb edir. Ölkəmizin dövlət və ictimai maraqlarının müdafiəsinə hər bir siyasi, ictimai, yaradıcı təşkilat öz töhfəsini verməlidir. Dövlətimizin suverenliyini, təhlükəsizliyini qorumaq, milli maraqlarımızın müdafiəsinə çalışmaq hər bir fərd və ya təşkilat üçün əsas meyar olmalıdır. Dövlət maraqlarının müdafiəsi həm dövlətimizin, həm də ictimaiyyətimizin təhlükəsizliyi, firavanlığı, onların günü-gündən dəyişməsi və inkişafı deməkdir.

Dövlət maraqları müdafiə olunmadan ictimai maraqlar qoruna bilməz. Dövlətin əsasında xalq durur, xalqın da əsas istinad yeri, arxa-dayağı dövlətdir. Odur ki, dövlət maraqları müdafiə edilməlidir ki, ictimai maraqlar da yaşaya bilsin. Əks halda, ikinci elə də uzunömürlü olmayacaq. Azərbaycan xalqı, ictimaiyyəti mənəviyyata, mənəvi dəyərlərə, dövlət anlayışına bağlı, onun atributlarına, simvollarına hörmətlə yanaşır. Dövlətimizin maraqlarına zidd olan, onun təhlükəsizliyini pozmağa yönələn, müstəqilliyinə qəsd etmək istəyən qüvvələrə qarşı Azərbaycan xalqı, ictimaiyyəti hər zaman mübarizə aparıb, bundan sonra da aparacaq. Bizim üçün dövlətimizin maraqlarının müdafiəsi vacibdir və bu, ictimai maraqlarımızın yaşaması deməkdir. Azərbaycanın dövlət maraqlarının ictimaiyyət arasında təbliği məsələsi də vacibdir. Qeyri-hökumət təşkilatları, fəal ictimaiyyətçilər, yaradıcı şəxslər, millət vəkilləri, el ağsaqqalları, bələdiyyələr vaxtaşırı ictimaiyyətlə görüşməli, onlarla dövlət maraqlarının müdafiə olunmasının vacibliyi, dövlət siyasətinin təbliği və bu istiqamətdə digər söhbətlər aparmalı, müzakirələr etməlidir.

Mətbuat cəmiyyətin inkişafında, əhali arasında ictimai maraqların yaranması və formalaşmasında önəmli rol oynayır. Mətbuatın ictimai həyatda iştirakının genişləndirilməsi, cəmiyyətdə baş verən istənilən hadisəyə müdaxiləsi özünü göstərir. Mətbuat ictimai maraqların müdafiəsində və təbliğatında iştirak etməklə yanaşı, maarifçilik işinə də dəstək verir.

Təsadüfi deyil ki, medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq kütləvi informasiya vasitələrinin fəaliyyətinin başlıca prinsiplərini təşkil etməlidir. Mətbuat cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Vətənə sevgi hissləri, vətənpərvərlik, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir. Mətbuat son illərdə hər bir Azərbaycan vətəndaşının fəxr edə biləcəyi inkişaf yolu keçib. Ona görə də kütləvi informasiya vasitələri ölkədə görülən işləri, Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daha geniş və obyektiv şəkildə işıqlandırmalıdırlar.

Azərbaycanda ictimai maraq anlayışının müxtəlif aspektlərinin hüquqi bazasının formalaşması və təbliği istiqamətində bir sıra işlər görülür. "İctimai bilgilərə çatım haqqında" (2005-ci il,1 yanvar), "İnformasiya əldə etmək haqqında" (2005-ci il, 30 sentyabr), "İctimai iştirakçılıq haqqında" (2014-cü il, 1 iyun) qanunlar və bu kimi digər sənədlərin qəbulu, müvafiq anlayışın mahiyyətinin geniş kütlələrə çatdırılması üçün maarifləndirici tədbirlərin keçirilməsi, beynəlxalq təcrübə və milli elementləri birləşdirməklə bu sahədə yeni bir modelin formalaşdırılması, ictimai marağı təmsil edən QHT və bənzər qurumların sayının artması və digər məqamları bu istiqamətdə önəmli addım kimi qeyd etmək olar.

Bu gün ölkəmizdə dünyanın ən mötəbər tədbirləri keçirilir. Azərbaycan gəncləri bu tədbirlərdə iştirak edərək beynəlxalq təcrübə toplayır, öz bilik və savadlarını inkişaf etdirirlər. Azərbaycan gəncləri ölkəmizi dünyanın hər yerində bütün sahələrdə layiqincə təmsil edir, respublikamızın daha da inkişafı istiqamətində dövlətimizə dəstək verirlər.

Ölkəmizdə hər kəs internetdən istifadə edə bilir. Azərbaycanın inkişafını qısqanclıqla qarşılayan qüvvələrə qarşı gənclərimiz uğurla fəaliyyət göstərirlər və lazım gəldikdə, onlara tutarlı cavablar vermək qabiliyyətinə malikdirlər .

Bu istiqamətdə "Səs" qəzetinə açıqlama verən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov Azərbaycanda vətəndaş mövqeyinin gücləndirilməsinə, hər kəsə cəmiyyətdə özünü təsdiq etməsi üçün istənilən məsələyə fikrini bildirməsinə yüksək şərait yaradılıb: "Azərbaycan demokratik dövlətdir. Cənab Prezident bütün çıxışlarında dəfələrlə bildirib ki, dövlətimizin ən vacib prinsipi vətəndaşların maraqları və mövqeyinin qorunmasıdır. Ölkəmizdə siyasi düşüncəsindən asılı olmayaraq, hər bir vətəndaş üçün şərait yaradılıb. İqtidara müxalifətdə olmaq, hansısa məsələyə fikir bildirmək olar, amma dövlətə və dövlətçiliyə müxalifətdə olmaq qəbuledilməzdir. Bunu heç bir dövlət, cəmiyyət və xalq qəbul etmir. Azərbaycan gəncliyinin siyasi düşüncəsi mövcuddur və gənclərimiz savadlıdır. Hər bir cəmiyyətdə olduğu kimi, Azərbaycanda da fikir müxtəlifliyi ola bilər. Ancaq bu siyasi spekulyasiyaya, dövlətçiliyin sütunlarına və xalqa qarşı olmamalıdır. Bunun üçün siyasi savad, ictimai-siyasi proseslərin düzgün təhlili olmalıdır. Bəzi gənclər Azərbaycandan uzaqda olub, hansısa qüvvələrin təsiri altında virtual məkanda öz milli dəyərlərini, siyasi maraqlarını, dövlətin tarixini, gələcəyə nişanlayan hədəflərini bilməyən, bayağı, populist heç bir hüquqi əsası, həqiqətə uyğun olmayan məlumatlar yaymağa cəhd göstərirlər. Həmin gənclərə bildiririk ki, Azərbaycanın dövlət müstəqilliyi və dövlətçiliyi ona görə qurulmayıb ki, hansısa cılız insanlar bundan spekulyativ tərzdə istifadə etsin. Azərbaycan böyük layihələri imzaladığı dövlərdə müəyyən maddi maraqlara söykənən, siyasi dairələrin istifadəsi üçün lazım olan insanlar aktivləşməyə başlayır. Ancaq proseslər göstərir ki, onlar heç vaxt istədiklərinə nail ola bilməyəcəklər. Azərbaycan güclü dövlətdir, onu sevən, sədaqətlə xidmət edən, bayrağına bağlı olan çoxminli gənclər ordusu var və bu ordu Cənab Prezidentin siyasətini dəstəkləyir. Azərbaycanı istəməyən qüvvələr bilsin ki, nə qədər torpaqlarımız işğal altındadır, ölkəmizin haqq səsi bərqərar olmayıb, əsas amalımız torpaqlarımızın azad olunması, insanlarımızın yurd-yuvalarına qayıtmasıdır. Azərbaycanın uğuruna sevinməyən, spekulyativ siyasi məsələləri bayraq tutanar bilməlidir ki, dövlətimiz bundan sonra da irimiqyaslı dünyəvi layihələrə imza atacaq və iqtisadiyyatımız daha güclənəcək. Sosial şəbəkələr fikir mübadiləsi üçün istifadə olunmalıdır. Hər gənc ordan öz bilgisini artırması, milli tarixini daha dəqiq bilməsi, dünya proseslərini təhlil etməsi üçün yararlanmalıdır. Müxtəlif adlar altında gizlənib, yalnış fikir yaratmaq, müxtəlif mənbələrdən maliyyələşərək yalanlar yayan qüvvələrin işləri sıfıra bərabərdir. Bu cəhdlərin heç bir hüquqi əsası yoxdur, cəmiyyətdə dəstək almayıb və almayacaqlar".

**İctimai və dövlət maraqlarının qorunmasında təkcə ayrı-ayrı fərdlərin və ya toplumların deyil, ümumən vətəndaş cəmiyyəti institutlarının üzərinə ciddi məsuliyyət qoyulur. Çünki reallıqda birbaşa toplumla işləyən dövlət deyil, məhz belə institutlardır. Bu institutlar isə fəaliyyətini elə istiqamətdə qurmalıdır ki, həm dövlətin, həm də cəmiyyətin maraqları təmin olunsun.**

İctimai və dövlət maraqlarının qorunmasında təkcə ayrı-ayrı fərdlərin və ya toplumların deyil, ümumən vətəndaş cəmiyyəti institutlarının üzərinə ciddi məsuliyyət qoyulur. Çünki reallıqda birbaşa toplumla işləyən dövlət deyil, məhz belə institutlardır. Bu institutlar isə fəaliyyətini elə istiqamətdə qurmalıdır ki, həm dövlətin, həm də cəmiyyətin maraqları təmin olunsun.

Ona görə, dövlət və ictimai maraqların təmin olunması müasir dövrün ən mühüm məsələlərindən biri kimi qarşımızda dayanır. Bu gün dünyada baş verən siyasi-iqtisadi proseslər, geosiyasi dəyişikliklər, qloballaşma kimi amillər dövlət və ictimai maraqların mahiyyəti və təmin olunması ilə bağlı ortaya real çağırışlar qoyur. İctimai maraqlar cəmiyyətin hər bir təbəqəsinin rəyini əks etdirir.

Dövlət və ictimai maraqların bir-birilə sıx bağlılığı birbaşa konstitusiya ilə tənzimlənir. Xalq və dövlət, ictimaiyyət ayrılmaz məfhumlardır. Azərbaycan xalqının dövlət maraqlarına bağlılığı bəllidir. İctimaiyyətin əsas hədəfi dövlətimizin daha da inkişaf etməsi, günü-gündən çiçəklənməsi, regionda daim lider dövlət adını qoruyub saxlamasıdır.

***Elgün Aslanov***
***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün***



# Azərbaycanda hüquqi dövlətin formalaşması dönməz xarakter alıb

**Ötən illər ərzində aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə digər sahələrlə yanaşı demokratik və hüquqi dövlət quruculuğu sahəsində də mühüm işlər görülüb. Atılan addımların nəticəsi olaraq, Azərbaycanda sabitlik və əmin-amanlıq bərqərar olunmaqla, qanunun aliliyinə əsaslanan sivil vətəndaş cəmiyyəti formalaşdırılıb.**

Azərbaycanda yeni siyasi sistemin, o cümlədən, vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindəndir. Məhz Ulu Öndər vətəndaş cəmiyyəti quruculuğu nüanslarına sadiq qalaraq Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlətin baza prinsiplərini ardıcıllıqla tətbiq etməyə nail oldu. Danılmaz faktdır ki, vətəndaş cəmiyyətinin təməlinin möhkəmlənməsində müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu müstəsna rol oynadı. 1995-ci il Konstitusiyası insan hüquq və azadlıqlarının təminatı, demokratik vətəndaş cəmiyyəti quruculuğunu dövlətin ali məqsədi kimi müəyyən etdi.

Əsas Qanunun qəbul edilməsilə ölkəmiz hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda yeni bir mərhələyə qədəm qoydu. Bu səbəbdən də, Azərbaycanın müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı haqlı olaraq Ulu Öndərin adı ilə bağlanılır.

1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyamız dünyada nadir qanun toplusundan biridir. Burada demokratik-hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunub. İnsan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilib. Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilib. Demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığı, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Əsas Qanunun rolu qat-qat artır. Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları lazımi şəkildə öz əksini tapıb.

Azərbaycanda hüquqi dövlət quruculuğunun təxmini üç mərhələsini fərqləndirmək olar. Birinci dövr dövlət müstəqilliyini əldə etdikdən sonra Yeni Konstitusiyanın qəbuluna qədərki zamanı əhatə edir. Bu dövrdə bir sıra yeni siyasi-hüquqi dəyərlər, prinsiplər, institutlar və mexanizmlər dövlət-hüquq sisteminə daxil oldu. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, azad mətbuatın hüquqi əsasları yaradıldı və fəaliyyətə başladı. İkinci mərhələ, Yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanın Avropa Şurasına daxil olmasına qədərki dövrdür. Bu dövrdə konstitusiya nəzarəti orqanı, azad mətbuatın qanunvericilik bazası formalaşdırıldı. Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq konvensiyalara qoşuldu. Milli qanunvericilik təkmilləşdirildi, yerli özünüidarənin hüquqi əsasları yaradıldı və ilk bələdiyyə seçkiləri keçirildi. Üçüncü dövr isə Azərbaycanın Avropa Şurasına daxil olmasından başlanır və indiyə kimi davam edir.

Konstitusiyanın qəbulundan sonra ölkədə aparılan məhkəmə-hüquq islahatı nəticəsində bütün hüquq təchizatlarının fəaliyyətini tənzimləyən yeni mütərəqqi qanunlar qəbul edilib. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesi dövlətin prioriteti kimi qəbul edilib. Tarix göstərir ki, iqtisadi sahədə inkişaf etməmiş dövlətlərdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel davam etdirilməsi şərtilə real hesab edir. Ölkə başçısının dəstəyi ilə yaradılan "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən xidmətlərin göstərilməsində vətəndaş məmnunluğunu, şəffaflığı təmin edir, korrupsiyanın qarşısını alır. Cənab Prezidentin də dediyi kimi, "vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin davam etməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq, bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir".

Ümumiyyətlə, demokratiyanı siyasi sistem formalaşdırır. Onun dayanıqlı olması üçün isə vətəndaş mövqeyi, vətəndaş cəmiyyəti, eləcə də, hüquqi dövlətin mövcudluğu zəruridir. Vətəndaş cəmiyyəti insan azadlığı və hüquqlarından xəbərsiz, özünü ifadə etməkdən çəkinən, məqsədlərinə çatmaq naminə neqativ yollara əl atmaqdan çəkinməyən vətəndaşlardan yarana bilməz. Əgər bir vətəndaş öz hüquq və azadlıqlarını bilmirsə, sosial məsuliyyətini dərk etmirsə, hüquqlarını tələb etməkdən vaz keçirsə, onda nə demokratiya, nə də vətəndaş cəmiyyətindən danışmağa dəyər.

## Ekspertlərin fikrincə, hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlıdır

Azərbaycanda müasir vətəndaş cəmiyyətinin əsas elementi anlamında isə qeyri-hökumət təşkilatları yeni mərhələyə qədəm qoymaqla vətəndaş cəmiyyətinin formalaşmasında öz sözünü deyə bilib. Artıq QHT-lər milli proqramların hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər ki, bu da ölkədə vətəndaş cəmiyyətinin formalaşmasına dəlalət edən amillərdəndir. Son zamanlar QHT-lərin vətəndaşların sosial, siyasi və mədəni hüquqlarının həyata keçirilməsində daha çox yardımçı olmağa cəhd göstərdiyini söyləsək düşünürəm ki, yanılmarıq. Hətta bir sıra QHT-lər qanunların aliliyinə, şəffaflığın təmin olunmasına ictimai nəzarətin həyata keçirilməsi sahəsində də peşəkar fəaliyyəti ilə də seçilirlər. Bəzi xarici dairələrdən maliyyələşən və göstəriş alan bir-iki qərəzli "vətəndaş cəmiyyətlərini" nəzərə almasaq, demək olar ki, bütün QHT-lər Azərbaycanda demokratik quruluşun dəstəklənməsi, dünyəvi dövlətin qurulması, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyinin təmin edilməsi istiqamətində kifayət qədər fəallıq nümayiş etdirirlər.

Etiraf edilməlidir ki, ölkədə vətəndaş cəmiyyətlərinin çoxşaxəli fəaliyyəti, xüsusən Azərbaycan həqiqətlərinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki gördüyü işlər Azərbaycan dövləti tərəfindən də dəstəklənir. Bu məqsədlə 27 iyul 2007-ci ildə Prezident İlham Əliyev QHT-lərə dövlət dəstəyi konsepsiyasını təsdiq etdi və dekabrın 13-də Qeyri- Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla da QHT-lər yeni bir mərhələyə qədəm qoymuş oldu və vətəndaş cəmiyyətlərinin xarici donorlardan asılılığı aradan qalxdı. QHT-lərə dövlət dəstəyinin digər bariz nümunəsi Prezident İlham Əliyev tərəfindən QHT-lərin fəaliyyətinin daha da genişlənməsinə təminat verən çoxsaylı qanun layihələrinin parlamentə təqdim edilməsidir. Bütün bunlar ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı bir Azərbaycan modelinin formalaşdığının göstəricisidir.

Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi, vətəndaş cəmiyyəti qurmaq mümkündür.

Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını da zəruri edir. Son illər ərzində hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək, onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha səmərəli şəkildə təşkil edilməsini, yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirir. Vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının genişləndirilməsi, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədilə ədliyyə sistemində müvafiq tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi ötən illər ərzində ölkəmiz insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib. Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi və demokratik-hüquqi dövlət quruculuğu sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir.

Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi, məhz demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin davam etməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq, bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Məhz ölkə başçısının yorulmaz və məqsədyönlü fəaliyyəti, dövlətçilik işinə novator yanaşmaları, müdrik siyasəti sayəsində ölkəmizdə demokratik inkişaf və tərəqqi, sağlam vətəndaş cəmiyyətinin yaradılması, hüquqi dövlətin formalaşması dönməz xarakter almışdır. Bu gün Azərbaycanda dövlətçiliyin yeni epoxası formalaşır. Xalqımız demokratik və hüquqi dövlətdə yaşayır və xoşbəxt gələcəyə inamla gedir.

***Nailə Məhərrəmova***
***Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# “Terrora çağırış edənlər onu həyata keçirənlərlə eyni məsuliyyət hissini daşıyırlar”

*İctimaiyyət hüquq-mühafizə orqanlarından sərt tədbirlər görülməsini tələb edirlər*

**Ölkəmizdə son günlər baş verən hadisələrdən müxalifətin dağıdıcı ünsürləri öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhdlər göstərirlər. Xüsusilə də, sosial şəbəkələrdə dağıdıcı müxalifətin tör-töküntüləri olan bəzi şəxslər insanları kütləvi itaətsizliyə, işlədikləri idarə, müəssisə rəhbərlərinə qarşı terror aktları törətməyə çağırışlar edirlər. Söhbət etdiyimiz müsahiblərimiz bu kimi hallara qarşı dövlətin sərt tədbirlər görməsinin vacibliyini bildirdilər.**

Hikmət Şikarov, YAP Pirallahı rayon təşkilatının sədri: **“Bu hadisəni müdafiə eləmək terrorçunun yanında olmaq deməkdir”**



- İlk öncə, deməliyəm ki, Gəncədə törədilən cinayət birbaşa terror aktıdır. Bu aktı təşkil edənlər, arxasında duranların qarşılarına qoyduğu əsas məqsəd də ölkədə ictimai-siyasi sabitliyi pozmaq və qarşıdurma yaratmaqdan ibarət olub. Bu hadisəni müdafiə eləmək terrorçunun yanında olmaq deməkdir. Həm də dövlətə qarşı çıxmaqdır. Ona görə də, hesab edirəm ki, bu cür məqamlarda, belə qrup və təşkilatlar ictimai qınaqdan başqa, həm də dövlət tərəfindən xüsusi bir mexanizmlə cəzalandırılmalıdırlar. Söz yox ki, bu məsələni sosial şəbəkələr vasitəsi ilə gündəmə gətirib, öz çirkin məqsədlərinin həyata keçirilməsinə yönəldənlər Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı və digər xarici qüvvələrdən maddi və mənəvi dəstək alanlardır. Onlar məram və məqsədlərini anlamayan bir neçə gənci ələ almaqla, öz pozucu niyyətlərinin həyata keçirilməsinə ümid bəsləyirlər. Birmənalı şəkildə demək olar ki terrorçuya dəstək vermək, fikrimcə, terrorçunu maliyyələşdirmək kimi bir şeydir. Ona görə də, hesab edirəm ki, bunlar haqqında xüsusi araşdırmalar aparılmalıdır və buna hüquqi qiymət verilməlidir. Tək ictimai qınaqla bunlar kənarda qalmalı deyil. Belə bir terror hadisəsinin dəstəklənməsi isə qətiyyən yolverilməzdir. Ancaq və ancaq ölkədə sabitliyin pozulmasını istəyən adamlar bu hadisəni törətmiş şəxsə dəstək verə bilərlər. Ancaq onlar bilməlidir ki, Azərbaycan güclü dövlətdir və kimlərsə bu cür hadisələrlə ictimai-siyasi sabitliyi poza bilməz. Bu gün hüquq-mühafizə orqanları araşdırma aparır və nəticə hər kəsə aydın olacaq. Əminik ki, sosial şəbəkələrdə insanları kütləvi itaətsizliyə çağıranlar öz məkrli istəklərinə nail olmayacaq və sərt şəkildə hər kəs layiqli cəzalarını alacaqlar.

Mehriban Abasquliyeva, YAP Sabunçu rayon təşkilatının sədri: **“Bu çağırışları edənlər öz ağalarından aldıqları sifarişləri yerinə yetirirlər”**

- Gəncədə baş verən cinayət hadisəsindən sonra özlərini “demokrat” adlandıran və guya hər zaman hüququn aliliyi prinsipindən çıxış etdiklərini deyən dağıdıcı müxalifət və onlara dəstək verənlər hadisəni törədən şəxsi müdafiə etməyə başlayıblar. Kimlərdir bu çağırışları edənlər? Həmişə olduğu kimi, xaricdən maddi və mənəvi dəstək alanlar. Onlar durmadan ölkə vətəndaşlarını itaətsizliyə çağırışlar ediblər və bu gün də baş verənlərdən istifadə edərək, öz çirkin əməllərini davam etdirirlər. Halbuki hüquq-mühafizə orqanlarının ilkin araşdırmalarından sonra Gəncədə baş verən olayın terror hadisəsi olduğu təkzibolunmaz faktlarla ictimaiyyətə bəlli olub. Amma buna baxmayaraq, hadisəni törətmiş Yunis Səfərov anti-milli ünsürlər və dağıdıcı müxalifət tərəfindən sosial şəbəkələrdə cəmiyyətə “qəhrəman” kimi təqdim edilir. Deyərdim ki, bu gün sosial şəbəkələrdə terroru törədənlərə dəstək çağırışlar edənlər də həmin terroru planlaşdıran qüvvələr tərəfindən edilir. Bu çağırışların sosial şəbəkələrdə yayılması insanları çaşdırmaq məqsədi daşıyır. Məhz buna görə də, Azərbaycan xalqı, o cümlədən, gənclər belə bir aksiyaya dəstək vermir. Çünki bilirlər ki, bu çağırışları edənlər öz ağalarından aldıqları sifarişləri yerinə yetirirlər. Bunun arxasında terrorçu qruplar dayanır və onlar da daxildəki əlaltılarından istifadə edərək, çağırışları cəmiyyətə sırımağa çalışırlar. Ancaq həmin ünsürlər anlamalıdırlar ki, bizim cəmiyyətimiz dəfələrlə belə hadisələrin şahidi olub, ancaq heç zaman dəstək verməyib və verməyəcək də. Çünki belə çağırışların arxasında hansı məkrli qüvvələrin hansı məqsədlərinin dayandığını hər kəs yaxşı bilir.



Nazim Ağayev, YAP Xaçmaz rayon təşkilatını sədri: **“Terrora çağırış edənlər onu həyata keçirənlərlə eyni məsuliyyəti daşıyırlar”**



- Bu gün Gəncə törədilmiş terror aktı ilə istəklərinə çata bilməyən dağıdıcı müxalifət qüvvələr indi dövlətçilik əleyhinə sosial şəbəkələrdə terrora çağırışlar etməyə başlayıblar. Siyasi sabitliyin pozulmasına, qarşıdurmaya, xaosa, ədavətə xidmət edən bu çağırışlar özü özlüyündə terror aksiyasıdır. Eyni zamanda, terrorçu ətrafında mif yaratmaq, onu qəhrəmalaşdırmaq, vətəndaş itaətsizliyinə çağırışlar etmək fikrimizin həqiqiliyinə şübhə yeri qoymur. Belə çağırışlar bir neçə il əvvəl “Müsəlman Birliyi Hərəkatı”nın sədri Taleh Bağırovun həbsi ərəfəsində başlamışdı. Bu isə, bir daha onu təsdiqləyir ki, növbəti hadisələr də eyni mərkəzdən idarə olunur. Bir sözlə, görünən dağ bələdçi istəmir. Çünki terrora çağırış edənlər onu həyata keçirənlərlə eyni məsuliyyəti daşıyırlar. Bu baxımdan, hesab edirəm ki, belə çağrışlara yol verən insanlar, kimliyindən asılı olmayaraq, ifşa olunmalı və məsuliyyətə cəlb edilməlidirlər. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, terrora çağırışlar və ya terror hadisənin törədilə biləcəyi ilə bağlı dəqiq məlumatı olub, hüquq-mühafizə orqanlarına məlumat verməməyə görə, azadlıqdan məhrumetmə cəzası tətbiq olunur. Hesab edirəm ki, Azərbaycan hüquq-mühafizə orqanları sosial şəbəkələrdə qeyri-qanuni çağırışlar edənləri məsuliyyətə cəlb olunmaları üçün müvafiq addımları bir qədərdə sərtləşdirmiş olacaq.

***RƏFİQƏ KAMALQIZI***

# Paşinyanın Brüssel səfəri - Rusiyanın intiqamı ağır olacaq

*Şimal ayısı Qafqazdakı forpostunu məhv etmək qərarına gəlib*



***Ermənistanın baş naziri Nikol Paşinyanın get-gedə daha çox Qərbə doğru hərəkət etməsi, artıq belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, onun “məxməri inqilabı” məhz həmin cinahdan idarə olunub. Brüssel və Vaşinqtonun Paşinyanı ciddi-cəhdlə Rusiyadan qorumaq cəhdləri isə, demək olar ki, tam şəkildə reallaşmır.***

Məsələyə bir az da öncəki zamanlardan yanaşaraq, xatırlatmaq olar ki, hələ Serj Sarkisyanın hakimiyyəti dövründə Ermənistan müəyyən dərəcədə Qərbə doğru meyillənməyə cəhdlər göstərirdi. Kreml isə öz forpostunu elə-belə, heç nə olmadan buraxmaq fikrində deyildi...

**Rusiya baş verənlərə bir anlıq gözünü yumsa da, bu, yalnız bir anlıq idi...**

Misal üçün, Rusiyanın siyasi beyinləri - tanınmış politoloqları və hərbi ekspertləri Sarkisyanın Qərblə sazişlərə gedəcəyi halda, ağır günlər gözləyəcəyi proqnozunu verirdilər. Əslində, belə də oldu. Daha doğrusu, Rusiyadan ucuz qaz alan Ermənistan qısa müddətdə ona olan qiyməti artırdı. Digər tərəfdən, Ermənistandan Rusiyaya idxal olunan kənd təsərrüfatı məhsullarına qadağalar qoyuldu, eləcə də, Rusiyada qeyri-qanuni əmək fəaliyyəti göstərən ermənilərin böyük hissəsi bu ölkədən deportasiya olundu. Artıq bütün bunlar Serj Sarkisyanın siyasi sonunun yaxınlaşması demək idi.

Lakin bu da nəticə deyildi. Ermənistanda kriminal-oliqarx sisteminin baş alıb-getməsi Şimalın gözündən yayınmırdı və Rusiyanın təminatı ilə fəaliyyət göstərən həmin sistem üzvlərinin, yəni hakimiyyət klanının Rusiya banklarındakı hesablarına müdaxilələrin edilməsi də Sarkisyan rejiminə verilən ultimatum oldu. Beləliklə, Ermənistan prezidentinin hakimiyyətdən uzaqlaşmasına az müddət qalmış onun özünün və emissarlarının Kremllə vəziyyəti normallaşdırmaq cəhdləri, hətta onların yenidən Rusiyanın bayrağı altında qalacaqları vədlərindən boşa çıxmış oldu. Baxmayaraq ki, Rusiya həmin ərəfələrdə cücərən “məxməri inqilabı” dəstəkləmirdi, ancaq digər tərəfdən, Sarkisyanı da dalana dirəmək məqsədindən geri çəkilmirdi. Nəticədə, Qərb Nikol Paşinyanı hakimiyyət arenasına qədər gətirib-çıxarmağı bacardı. Necə deyərlər, Rusiya baş verənlərə bir anlıq gözünü yumsa da, bu, yalnız bir anlıq idi...

**Hesablarında milyardlarla pulları olan kriminal-oliqarx sistemi son anda Şimaldan ciddi dəstək də ala bilər, hətta Paşinyan gözlənilmədən devrilmə təhlükəsini yaşamaq məcburiyyətində qalar**

Paşinyan isə, yuxarıda da qeyd olunduğu kimi, Qərbə doğru Sarkisyandan, fərqli olaraq, daha açıq şəkildə addımlayır. Ancaq onu da unutmaq olmaz ki, Şimal ayısı Nikolun siyasətinə göz yumacaq, əksinə, onun intiqamı daha ağır olacaq. Buna misal kimi, Paşinyanın baş nazir statusuna yiyələnməsindən sonra kriminal-oliqarx sisteminə qarşı müharibə elan etməsi oldu. Halbuki həmin sistemin arxasında dayanan əsas güc, qeyd edildiyi kimi, Rusiya idi. Bu gün istintaqlara cəlb edilənlərin, axtarışa verilənlərin, barələrində şifahi həbs qərarları çıxarılanların sırasında Serj Sarkisyanın da yaxın qohumları var. O cümlədən, Robert Koçaryanın və başqalarının da haqqında istintaq işlərinə başladılıb. Yəni bütün bunlara baxmayaraq, hesablarında milyardlarla pulları olan kriminal-oliqarx sistemi son anda Şimaldan ciddi dəstək də ala bilər, hətta siyasi cəhətdən əks-hücum manevrləri edilməklə, Paşinyan gözlənilmədən devrilmə təhlükəsini yaşamaq məcburiyyətində qalar. Çünki siyasət yalnız gözəl və bəlağətli çıxışlar edib, xalqı cəlb eləməklə bitmir, siyasət həm də əməli şəkildə reallaşdırılmalıdır. Paşinyan, hələ ki, bu kimi məsələlərdə özünü doğrulda bilməyib. Əksinə, Rusiya ilə tarana gedərək, vəziyyətin daha da gərginləşməsinə şərait yaradır. Belə olan halda, biz, Qərbin dəstəyi ilə son illərdə hakimiyyətə yiyələnmiş Ukraynanın hazırkı vəziyyətini müşahidə edə bilərik. Daxili siyasi böhran bu ölkədə, sadəcə, bitib-tükənmir və hər gün yeni siyasi qalmaqallar müharibə şəraitində olan Ukraynanın ayaqda qalmaq şanslarını azaldır. Nə Brüssel, nə də Vaşinqton Kiyevə verdiyi vədlərini yerinə yetirməyib. Qarşıdan gələn prezident seçkilərində Ukraynada siyasi böhranın daha da genişlənməsi proqnozlaşdırılmaqdadır. Yəni Ermənistanın Paşinyan dönəmi də həmin aqibətə doğru istiqamət almaqdadır...

**Paşinyana verilmiş cavabsız sual: “Cənab Paşinyan, əgər siz baş nazir olmasaydınız, övladınızı belə təm-təraqlı şəkildə, mediada reklam etməklə hərbi xidmətə yollayardınızmı?”**

Küçədən gələn baş nazirin siyasi səriştəsizliyi və ilk uğursuzluğu kimi biz may ayında Azərbaycan Ordusunun Naxçıvanda əldə etdiyi möhtəşəm qələbəsini göstərə bilərik. Hətta bütün bunlardan sonra onun gah işğal edilmiş Qarabağ ərazilərinə, gah da Naxçıvana səfər etməsi siyasi reytinqinə heç bir müsbət təsir göstərmədi. Əbəs deyil ki, həmin hadisələrdən sonra Ermənistan ictimaiyyəti yalnız Serj Sarkisyan hakimiyyətini deyil, eləcə də, Paşinyan iqtidarını da tənqid atəşinə tutdu. Bütün bunlardan sonra Paşinyanın oğlunu hərbi xidmətə yola salması bu vəziyyəti daha da gərginləşdirdi. Belə ki, erməni sosial şəbəkə istifadəçiləri, eləcə də, mətbuatı Nikolun öz oğlunu hərbi xidmətə PR (piar) vasitəsilə yola salmasını “atəşə” tutdu. Onun reytinq qazanmaq xətrinə oğlunun hərbi xidmətə yola salınmasını reklam etməsi, birmənalı qarşılanmadı. Hətta ona sual edənlər də tapıldı. Misal üçün, soruşuldu ki, “cənab Paşinyan, əgər siz baş nazir olmasaydınız, övladınızı belə təmtəraqlı şəkildə mediada reklam etməklə, hərbi xidmətə yollayardınızmı?”. Maraqlıdır ki, Nikol Paşinyan bu xarakterli sualları cavabsız qoyub...

Beləliklə, Ermənistanın yeni hakimiyyətinin vəziyyəti, hər iki halda, yaxşı deyil. Birincisi, Qərb öz maraqlarını vassal Ermənistan vasitəsilə Cənubi Qafqaz regionuna çəkmək arzusuna çatsa belə, Rusiya bu maraqları alt-üst etmək üçün, həmin ölkəni siyasi-iqtisadi blokadaya alıb, onu yenidən öz qarşısında diz çökdürəcək. Bütün hallarda, Ermənistanın mövcud durumu ağır və çıxılmazdır. Paşinyanın Brüssel səfəri bu gerçəkliyin başlanğıcı da hesab edilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# “Təxribatlar Əli Kərimli və onun ətrafı tərəfindən idarə olunur”

## *“Bu çağırışları edənlər qanunlar çərçivəçində aşkar edilməli və məsuliyyətə cəlb olunmalıdırlar”*

***Dağıdıcı müxalifətin, eləcə də, xarici məkrli qüvvələrin təsiri altında olan bəzi şəxslər sosial şəbəkələr vasitəsi ilə insanları kütləvi itaətsizliyə, qarşıdurmalara və işlədikləri strukturların rəhbərlərinə qarşı terror aktları törətməyə çağırışlar edirlər. Söhbət etdiyimiz müsahiblərimiz bu kimi şəxslərin arxasında dağıdıcı müxalifətin təlimatları və xarici qüvvələrin maliyyə dəstəyinin dayandığını bildirdilər.***

Millət vəkili Tahir Rzayev: **“Bu əməlləri pisləyirəm”**



- Terrora cəhd etmək, itaətsizlik, kütləvi iğtişaşlara çağırış qanuna zidd hallardır. Çünki əgər insanlara demokratiya, söz və mətbuat azadlığı verilibsə, bunlar bu vasitələrlə öz hüquqlarını qorumalı və qanuni şəkildə müraciətlər etməlidirlər. Onların qeyri-qanuni çağırışları zorakılıq yoludur. Bu zorakılıq yolu da, sözsüz ki, qanunla tənzimlənməlidir və qanuni cavabını almalıdır. Heç bir demokratik və azad müstəqil ölkədə belə hallara yol verilmir. Belə çağırışı edənlər istər ABŞ-da, istərsə də digər Avropa ölkələri olsun, o dəqiqə də öz cəzalarını alırlar. Çünki bu cür hərəkətlərə əl atmaq hüquqa zidd yoldur. Əgər kiminsə nə təklifi varsa, incidilirsə, nə vaxtsa hüquqi pozulubsa qanuni şəkildə müvafiq orqanlara müraciət etməlidir. Yoxsa haradasa xırda bir hadisə olur, bundan sui-istifadə etmək yolverilməzdir. Mən qəti şəkildə terrorun, insanları itaətsizliyə çağırmağın əleyhinəyəm və bu əməlləri pisləyirəm. Sözsüz ki, onların bu cür hərəkətləri Azərbaycanda qarşıdurma yaratmağa xidmət edir. Yəni müəyyən qüvvələr var ki, bundan bəhrələnmək istəyirlər. Amma heç vaxt çirkin məqsədlərinə nail ola bilməyəcəklər.

“Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: **“Bu çağırışları edənlər məsuliyyətə cəlb olunmalıdırlar”**



- Gəncə şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilən sui-qəsd cəhdi cəmiyyətimizdə ciddi etiraz və hiddətlə qarşılandı. Respublikanın hüquq-mühafizə orqanlarının birgə məlumatında da bildirildi ki, bu sui-qəsd cəhdi terror aktıdır. Bu olayı törədən şəxsin qəhrəmanlaşdırılması cəhdləri isə qətiyyən yolverilməzdir. Bu gün Azərbaycanın uğurlarını, ölkəmizdəki əmin-amanlığı, sürətli inkişafı gözü götürməyən çoxsaylı qara qüvvələr mövcuddur. Onların əksəriyyəti müxtəlif xarici havadarlarının dəstəyi ilə belə çirkin oyunlardan istifadə edərək, ictimai-siyasi asayişi pozmağa çalışırlar. Azərbaycan demokratik-hüquqi dövlət olduğu üçün bu gün sosial şəbəkələrdən istifadəyə heç bir məhdudiyyət qoyulmur. Lakin dövlətin vətəndaşların söz və ifadə azadlığının təmini istiqamətində atdığı addımlardan sui-istifadə edərək, sosial şəbəkələr vasitəsi ilə cəmiyyətdə qarşıdurma yaratmağa çalışmaq, insanları itaətsizliyə, qanunsuz aksiyalara səsləmək heç bir çərçivəyə sığmır. Bu çağırışları edənlər mütləq şəkildə qanunlar çərçivəçində aşkar edilməli və məsuliyyətə cəlb olunmalıdırlar. Daxili İşlər Nazirliyi və Respublika Prokurorluğunun son açıqlamalarında da, artıq bu prosesə başlanıldığı, mənfur terror aktından yararlanaraq, ictimai-siyasi sabitliyi pozmağa cəhd edənlərin məsuliyyətə cəlb edildiyinin şahidi oluruq. Elmar Vəliyevə qarşı məlum hücumdan sonra vətəndaşlarımız bir daha həmrəylik nümayiş etdirərək, bu olayı qətiyyətlə pislədilər. Cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri Azərbaycanda yaradılmış sabitliyi, əmin-amanlığı pozmağa yol verməyəcəklərini, terror aktının təşkilatçılarının qanunlar çərçivəsində ən sərt şəkildə cəzalanmalı olduğuna dair bəyanatlarla çıxış etdilər. Artıq sosial şəbəkələrdən istifadə edərək, təxribatlara yol açmağı planlaşdıran çağırışların isə heç bir təsir gücünə malik olmadığını görürük.

AMİP funksioneri Əli Orucov: **“Hər cür zorakılıqların və şiddətin qəti əleyhinəyəm”**



- Mən hər cür zorakılıqların və şiddətin qəti əleyhinəyəm. Bu metodlarla hansısa problemlərin həll etməyə, nəyəsə nail olmağa çalışanlar şəhv edirlər. Çalışmaq lazımdır ki, ölkədə qarşıdurmaların, gərginliyin və qeyri-sivil hərəkətlərin daha da artmasına deyil, sağlam rəqabətə və mübarizəyə əsaslanan xətt götürülsün. Ölkədə və idarəetmədə, az da olsa, problemlər var. İnsanlar arasında narazılıqlar da mövcuddur. Lakin bunlardan sui-istifadə edib, ölkəni xaosa sürükləmək olmaz. Məncə, istər müxalifət olsun, istər iqtidar, fərq etməz hər kəsin üzərində bu dövlətə və millətə görə məsuliyyət yükü var. Azərbaycanı istəməyənlər ola bilər və var. Onların əlinə fürsət verilməməlidir. İndi elə bir mərhələdəyik ki, dörd tərəfimizdə terrorizm və separatizm tüğyan edir. Ona görə də, etiyatlı və ayıq-sayıq olmalıyıq ki, bizi bu proseslərin içinə ata bilməsinlər. Təqdirəlayiq haldır ki, xalq təmkininin qoruyub-saxlayıb və hər deyilənlərə inanmır. Odur ki, kimin nə deməsi, nə söyləməsi, hansı çağırışlar etməsi, hansısa təxribatlara çəkmə cəhdləri insanları düzgün bildiyi yoldan sapındıra bilməz.

“Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı: **“Dövlət-xalq münasibətlərinə zərər vermək istəyən xarici qüvvələr var “**



- Ümumiyyətlə, bu cür çağırışlar və təxribat hallarına qarşı cəmiyyətin ən aktiv fəal ziyalı kəsimi, media strukturları mənfi münasibətini bildirməli və buna qarşı təbliğat aparılmalıdır. Cəmiyyətdə inamsızlıq yaradan, dövlət-xalq münasibətlərinə zərər vermək istəyən xarici qüvvələr var. Son terror aktında biz bunu müşahidə etdik. Yəni Gəncənin icra başçısına qarşı yönələn bu siyasi qəsd hadisəsi onu göstərir ki, Azərbaycanın daxilində dövlətə qarşı inamsızlıq yaratmaq istəyən, vətəndaş itaətsizliyinə yönələn hərəkətləri dəstək verən həm daxildə, həm də xaricdə qüvvələr var və bu qüvvələr də bəllidir. Bunlara qarşı mübarizə aparmaq lazımdır. Bizim üçün ən önəmlisi Azərbaycanın sabitliyinin daim qorunub- saxlanılmasıdır. Çünki sabitlik olmasa, problemlər həll edilməz və inkişaf da olmaz. Birinci növbədə, sabitliyi poza biləcək amillərin aradan qaldırılmasına yönəldilmiş hüquq-mühafizə orqanlarının apardığı o tədbirlər ki, var, o tədbirlərlə yanaşı, media strukturları, ziyalılar da hərəkətə keçməli və cəmiyyətdə sağlam abhavanın yaranmasına çalışmalıdırlar. Təəssüf edirəm ki, sosial şəbəkələrdə arzuolunmaz bir səviyyədə həm təbliğat gedir, həm də müzakirələr açılıb. Bizim yeganə bir dövlətimiz var- müstəqil Azərbaycan dövləti. Bu dövlətin ətrafında hamı birləşməli və dövlətin təhlükəsizliyini təmin etməlidir və hamı bir vətəndaş kimi buna borcludur.

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: **“Təxribatlar Əli Kərimli və onun yaxın ətrafı tərəfindən idarə olunur”**



- Azərbaycanda son günlərdə baş verən hadisələr-istər Mingəçevir İstilik-Elektrik Satansiyasındakı məlum qəza, istərsə də Gəncə şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyevin güllələnməsi kimi kriminal terror olayından sonra təəssüflər olsun ki, biz dağıdıcı müxalifətin xoşagəlməz və ikrahdoğurucu münasibətinin növbəti dəfə şahidi olduq. Mingəçevir İES-dəki qəzadan sonra radikal və təxribat xarakterli çağırışlar həm ölkə xaricində oturub xalqa vəkillik iddiasında olan bir qrup xəstə təfəkkürlü, bu xalqa, bu dövlətə qarşı ən çirkin formada mübarizə aparan insanlarla bərabər, Azərbaycanda özünə müxalifət deyən və zaman-zaman xaricdəki havadarlarının diktəsi ilə Azərbaycanda xaos yaratmaq istəyən qüvvələr tərəfindən həyata keçirilirdi. Mingəçevirdəki məlum olay havaların kəskin isti keçməsi səbəbindən dolayı baş vermiş bir fövqəladə hadisə idisə, bu məsələnin siyasətə ötürülməsi cəhdləri nə demək idi? Dünyanın müxtəlif ölkələrində oxşar və ya fərqli bədbəxt hadisələr, qəzalar baş verir, ölkələr günlərlə işıqsız qalır, amma onlarda bu tipli radikallıq nümayiş etdirilmir. Mən sırf Mingəçevir olayında hansısa məsuliyyətsizliyin ola biləcəyini inkar etmirəm və ya ona haqq qazandırmıram. Bu cür kritik bir məqamda faciəni fürsət bilib iyrənc formada mübarizəyə başlamaq cəhdlərinə, təxribat yaratmaq istəyinə isə xəyanətdən başqa ad verə bilmirəm. Ölkə başçısının dərhal proseslərə ən sərt formada reaksiyası, müvafiq Dövlət Komissiyasının yaradılması və hadisənin qısa müddətdə aradan qaldırılması ilə bağlı verdiyi tapşırıqlardan sonra növbəti hadisə- Gəncədə şəhər rəhbərinə qarşı silahlı hücum baş verdi və yenə də bu milli satqınların kəskin “fəallaşması” baş verdi. Sanki hər iki hadisədə paralellər dərhal nəzərə çarpdı. Təxribatlar Əli Kərimli və onun yaxın ətrafı tərəfindən idarə olunan saxta profillərdən, Avropada oturub ilin əvvəlindən ölkəyə qarşı söyüş terroru həyata keçirən xəyanətkar satqınlar tərəfindən həyata keçirilməyə başlandı. Demokratiya donu geninmiş bu satqınların simasını xalq növbəti dəfə gördü. Ölkənin ayrı-ayrı şəhər və rayonlarında vəzifəli şəxslərə, məmurlara qarşı terror çağırışları edənlər, məhz bu “demokratiya” carçıları idi. Əlbəttə, Azərbaycan xalqı müdrik xalqdır, o, bu çağırışları, birmənalı olaraq, rədd etdi, hadisələrə münasibətdə sağlam mövqe sərgilədi. Ölkədə mövcud olan dövlət-cəmiyyət həmrəyliyi, iqtidar-xalq birliyi bütün bu kimi iyrənc mübarizə metodlarının iflasa uğramasına səbəb oldu. Amma fikrimcə, bu cür məqamlarda və ümumiyyətlə, hər bir zaman xalq ayıq-sayıq olmalıdır. Dövlətçiliyimizə qarşı yönəlmiş istənilən məkrli niyyətin puç olması üçün, müstəqilliyimizin əbədi və daimi olması naminə hər zaman öz sözünü və birliyini nümayiş etdirməlidir. Çünki qarşıda növbəti təxribatların olmayacağını demək, sadəcə, mümkün deyil. Hesab edirəm ki, müvafiq strukturlar, güc qurumları bu cür iyrənc mübarizə üsulunu seçənləri və onlara dəstək verənləri müəyyənləşdirərək, zərərsizləşdirməkdə ardıcıl işlər görməlidirlər. Bu gün Azərbaycan dövləti Cənab Prezidentimiz İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq, dünyanın ən təhlükəsiz və stabil dövlətləri sırasında ön yerlərdə mövqe tutmuşdur və bütün uğurların kökündə, məhz bu stabillik dayanıb. Biz yeni tarixdə ən stabil dövlətlərdə belə ani olaraq qarışıqlıq yaratmaq, ərəb dövlətlərini vətəndaş müharibələrinə sürükləmək planlarının nəticələri, dövlətlərin sonu bilinməyən xaosa sürükləndiklərini görmüşük. Bütün bu kimi proseslər həmin dövlətlərdə olan milli xainlərin dəstəyi və köməyi ilə baş tutmuşdur. Ona görə də, qeyri-sivil yolla mübarizə aparmaq istəyən istənilən qüvvə ən sərt şəkildə qanunun gücü ilə cavabını almalıdır. Bu gün Azərbaycanda insanların istənilən narazılığını ifadə etmək üçün hər bir imkan mövcuddur. Ölkə başçısının tapşırığı ilə mərkəzi icra hakimiyyətlərinin rəhbərləri vətəndaşları regionlarda qəbul edərək, problemlərinin aradan qaldırılması üçün qəbullar təşkil edirlər. Ölkə başçısı hər bir dövlət məmurunun vəzifəsinin vətəndaşlara xidmət etmək olduğunu hər zaman bəyan edir və bu tapşırığa əməl etməyən istənilən məmur ən sərt formada cəzalandırılır və gələcəkdə də proses davam etdiriləcək. Yəni kimlərinsə dövlətlə vətəndaşlar arasına girərək, təxribat cəhdləri əbəsdir və bu kimi fəaliyyətlər heç vaxt reallaşa bilməyəcəkdir.

Böyük Quruluş Partiyasının Ali Məclisinin sədri Əjdər Əliyev: **“Düşmən ünsürlər pusquda dayanıblar “**

- Həm təmsil olunduğum partiyanın məramnaməsinə, həm də şəxsi düşüncəmə görə, səbəbi və məqsədi nə olursa-olsun, terrorun, təzyiqin bütün formaları qəbuledilməzdir və qətiyyətlə ona qarşı çıxılmalıdır. Vətəndaşlar ölkə konstitusiyasında onlara verilən hüquqlar çərçivəsində bu və ya digər məsələyə öz münasibətlərini bildirə, razılaşmadığı hadisə və proseslərə qarşı qanunların imkan verdiyi çərçivə daxilində etiraz formaları seçə bilərlər. Terror hadisələrinə bəraət qazandırmaq, insanları iğtişaşlara sövq etmək, kütləvi çaşğınlıq yaratmaq cəhdlərinə əl atmaq yolverilməzdir. Çünki daxili sabitliyi pozmaqla Azərbaycanı böhranlar burulğanından çıxa bilməyən Yaxın Şərq ölkələrindən birinə çevirmək istəyən kifayət qədər düşmən ünsürlər pusquda dayanıb. Ancaq düşünürəm ki, ölkə əhalisinin siyasi yetkinliyi məsuliyyətsiz fəaliyyətlərin qarşısını almağa yetəcək səviyyədədir.

***GÜLYANƏ***

# Uşaq hüquqlarının dünyada və ölkəmizdə müdafiəsi praktikası

***İnsan hüquqları sahəsində beynəlxalq normaların realizəsi problemi həm beynəlxalq, həm də dövlətdaxili aspektə malikdir. Bu zaman insan hüquqları sahəsində beynəlxalq normaların implementasiyası, onların müdafiəsi üzrə qaydaların müəyyən edilməsi sahəsində əsas vəzifə dövlətdaxili hüquqla müəyyən edilir.***



Dövlətin özünün dövlətdaxili qanunvericiliyinə istinad etməklə beynəlxalq öhdəliklərə əməl etməməsinin qeyri-mümkünlüyü hüquq ədəbiyyatında da ciddi şəkildə müdafiə edilir. Belə ki, Q.I.Tunkin hesab edir ki, dövlətdaxili və beynəlxalq hüquq normaları arasında uyğunsuzluq (kolliziya) yaranarsa, dövlət özünün beynəlxalq öhdəliklərini yerinə yetirməlidir, belə ki, onun dövlətdaxili qanunvericiliyə istinad etməsi onu beynəlxalq öhdəliklərdən azad etmir. Bu mənada, S.V.Çerniçenko haqlı olaraq qeyd edir ki, dövlətdaxili hüquq beynəlxalq hüquqla ona görə razılaşmalıdır ki, beynəlxalq hüququn yerinə yetirilməsini təmin etsin.

Dünya dövlətlərinin konstitusiyalarının əsas müddəalarının təhlili ilə bu problemi bir qədər də praktiki nöqteyi-nəzərindən izah edək. Məsələn, Almaniyanın Əsas Qanununun 25-cı maddəsinə görə, beynəlxalq hüququn ümumi normaları federasiya hüququnun tərkib hissəsidir, dövlətin qanunlarına münasibətdə üstün hüquqi qüvvəyə malikdir, federasiya ərazisində yaşayan şəxslər üçün hüquq və vəzifələr yaradır. Avstriya Konstitusiyasının 9-cu maddəsində qeyd edilir ki, beynəlxalq hüququn ümumtanınmış normaları federasiya hüququnun tərkib hissəsidir. Yunanıstan Konstitusiyasının 28-ci maddəsinin 1-ci bəndinə əsasən, beynəlxalq hüquq normaları, həmçinin, qanun əsasında və hər biri də müyyən olunmuş şərtlərlə qüvvəyə minmiş beynəlxalq müqavilə ratifikasiya edildiyi andan daxili hüququn tərkib hissəsidir.

Yaponiya Konstitusiyasının 98-ci maddəsində qeyd edilir ki, Yaponiya tərəfindən bağlanmış müqavilələr və beynəlxalq hüquqla müəyyən edilmiş normalar vicdanla yerinə yetirilməlidir.

Fransa Konstitusiyasının 55-ci maddəsində qeyd edilir ki, ratifikasiya edilmiş və ya təsdiq edilmiş beynəlxalq müqavilələr onların dərc edilməsi anından qanunların qüvvəsindən üstün qüvvəyə malik olur, bu şərtlə ki, həmin müqavilə və ya sazişlər digər tərəfdən də tətbiq edilsin. Bu zaman qarşılıqlı prinsipi də xüsusi yer tutur. İsveçrə Konstitusiyasının 5-ci maddəsinə görə konfederasiya və kantonlar tərəfindən beynəlxalq hüquqa əməl edilməsi dövlət-hüquqi fəaliyyətin prinsiplərindən biridir. Beynəlxalq müqavilələr İsveçrə üçün hüquqi qüvvəyə mindiyi andan onun daxili hüququnun tərkib hissəsidir, bu zaman hər hansı xüsusi inkorporasiya aktının qəbul edilməsi, hətta dərc edilməsi də tələb olunmur. Fərdlər üçün isə onun rəsmi qaydada dərc edilməsi tələb edilir.

Türkiyə dövlətinin iştirakçısı olduğu beynəlxalq müqavilələr dövlətdaxili hüquqda hər hansı qanunvericilik və ya inzibati xarakterli əlavə akt qəbul edilmədən inkorporasiya edilir. İnkorporasiya müqavilənin Türkiyə dövləti üçün qüvvəyə mindiyi andan başlanır.

B.İ.Ocminin yazır: "Ukrayna Konstitusiyasının 9-cu maddəsinə görə, Ali Rada tərəfindən məcburiliyinə razılıq verilən beynəlxalq müqavilələr milli qanunvericiliyin tərkib hissəsidir. Beynəlxalq müqavilələr dövlətdaxili ratifikasiya, qəbuletmə və ya birləşmə haqqında qanunla inkorporasiya edilir, bu zaman xüsusi qanunvericilik və ya inzibati xarakterli əlavə aktın qəbul edilməsi tələb edilmir".

M.B.Baqlayın fikrincə, RF Konstitusiyasının 15-ci maddənin 4-cü bəndində qeyd edilir ki, beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları və RF-nin beynəlxalq müqavilələri onun hüquq sisteminin tərkib hissəsidir. Əgər RF-nin beynəlxalq müqavilələrində qanunlardan fərqli olaraq, digər qaydalar müəyyən edilirsə, onda beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

AR üçün də beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsinin müəyyən edilməsi üzrə siyasətin müəyyənləşdirilməsi və öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üzrə implementasiya formalarının seçilməsi mühüm yer tutur.

Yuxarıda göstərilənləri ümumiləşdirərək AR praktikasında bir sıra xüsusiyyətləri qeyd etmək yerinə düşərdi:

1) Beynəlxalq hüququn, o cümlədən, beynəlxalq insan hüquqları standartlarının dövlətdaxili implementasiyası üçün adekvat hüquqi əsas müəyyən edən 12 noyabr 1995-ci il tarixli ümumxalq referendumu yolu ilə qəbul edilmiş AR Konstitusiyası və AR tərəfindən insan huquqları sahəsində qəbul edilmiş digər normativ-hüquqi aktlar beynəlxalq hüquq normalarına hörmət prinsipi üzərində qurulmuşdur. 18 mart 2009-cu il tarixli referendumda konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin xalq tərəfindən dəstəklənərək, qəbul olunması insan hüquqlarının müdafiəsinə yeni dəyərlər əlavə etmişdir.

F.M.Ələsgərov yazır: "Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə mühüm bir vəzifə kimi qoyulmuşdur. Eyni zamanda, konstitusiya ilə insan və vətəndaş hüquqlarının üstünlüyü və ölkə ərazisində birbaşa qüvvəsini elan edir, bunların təmin olunmasının AR-ın ali məqsədi olduğu bəyan edilir. Bu xususiyyətləri qeyd edərək, göstərilir ki, AR referendum yolu ilə qəbul olunmuş prinsipcə "insan hüquqları manifesti" adlana biləcək demokratik konstitusiyası ilə hüquqi dövlətə doğru-əsl vətəndaş cəmiyyətinə doğru qətiyyətli addım atmışdır".

N.Adilov göstərir ki, 2) Beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqəsi, bilavasitə AR Konstitusiyasında əks olunmuşdur. Belə ki, AR Konstitusiyasının 151-ci maddəsində göstərilir ki, AR-ın qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-ın tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Bu zaman göründüyü kimi, AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna təşkil edir. Buna oxşar müddəalar, bilavasitə uşaq hüquqları ilə əlaqədar AR tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlarda da əks olunmuşdur ki, bu da mühüm norma kimi müəyyən edilməlidir.

3) İnsan hüquqlarının təminatı sahəsində AR-in tutduğu mövqe özündə beynəlxalq hüquq normalarına tam hörmət prinsipini əks etdirir. Konkret insan hüquqlarına gəldikdə, bu zaman AR Konstitusiyasının 12-ci maddəsi xüsusi qeyd edilməlidir. Belə ki, 12-ci maddənin I-cı hissəsinə görə, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. 18 mart 2009-cu il tarixli referendumda konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərdə dövlətin ali məqsədinə insan hüquqları ilə bərabər AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi müddəasının da gətirilməsi insan hüquqlarına əlavə dəyər vermişdir. Həmin maddənin 2-ci hissəsinə görə isə, bu konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bu isə, AR-də insan hüquq və azadlıqlarının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması istiqamətində atılan müsbət addım kimi qiymətləndirilməlidir. Daha sonra, 71-cı maddənin 6-cı hissəsində qeyd edilir ki AR ərazisində insan və vətəndaş hüquqlarının və azadlıqları birbaşa qüvvədədir.

4) İnsan hüquqları sahəsində beynəlxalq müqavilə müddəalarının əksəriyyəti öz-özünə icra olunan deyildir. Buna görə də, insan hüquqlarının müdafiəsinin daha real təmininin ən yaxşı vasitəsi onların milli qanunvericiliyinə transformasiyası olardı. Belə ki, AR Konstitusiyasının 148-ci maddəsinin II hissəsində deyilir ki, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-in qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Doğrudan da, göstərilən müddəa beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqəsinin müəyyən edilməsində xüsusi yer tutur.

Qeyd etmək lazımdır ki, insan hüquqları sahəsində beynəlxalq normaların əksəriyyəti özü icra olunmayan normalardır. Belə ki, 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında" 1996-cı I tarixli Beynəlxalq Paktın 2-ci maddəsinin 2-ci hissəsində deyilir ki, dövlətlər öz ölkələrinin konstitusiya prosedurlarına və bu Paktın müddəalarına müvafiq olaraq, Paktda elan olunmuş hüquqların həyata keçirilməsi üçün zəruri ola biləcək belə qanunvericilik tədbirlərinin və digər tədbirlərin qəbul edilməsi üçün lazımi ölçü götürməyi öhdələrinə götürürlər. Uşaq Hüquqları haqqında 1989-cu il tarixli Konvensiyanın 3-cü maddəsinin 2-ci hissəsində qeyd edilir ki, iştirakçı dövlətlər uşağın valideynlərinin, qəyyumlarının və ya onun üçün qanuna görə məsuliyyət daşıyan digər şəxslərin hüquq və vəsaitlərini nəzərə alaraq, onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə uşağı təmin etməyi öhdəyə götürür və bu məqsədlə bütün qanunvericilik tədbirlərini və inzibati tədbirlər görürlər.

5) İnsan hüquqları sahəsində AR tərəfindən qəbul edilmiş mühüm dövlətdaxili normativ-hüquqi aktlar beynəlxalq normalara (standartlara) uyğundur ki, bu da, eyni zamanda, uşaq hüquqları sferasında mövcud qanunvericilikdə bir daha əks olunmuşdur. Belə ki, Uşaq Hüquqları haqqında 19 may 1998-ci il tarixli AR Qanununun 45-ci maddəsində qeyd edilir ki, AR-ın tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Gün ərzində çox oturmaq ölüm riskini artırır

Amerikanın Xərçəng Cəmiyyətinin araşdırmasına görə, idmanla məşğul olunsa belə, çox oturmaq 13 xəstəlikdən ölüm riskini artırır. AZƏRTAC xəbər verir ki, tədqiqatın nəticələrinə əsasən, gündə 6 saat və ondan çox oturanların erkən ölüm riski üç saatdan az oturanlara nisbətən 19 faiz daha yüksəkdir. Araşdırma nəticəsində çox oturmağın xərçəng, ürək xəstəlikləri, insult, diabet, xroniki obstruktiv ağciyər xəstəliyi, ağciyər və qaraciyər xəstəlikləri, mədə xorası və digər həzm sistemi xəstəlikləri, Parkinson, Alzeymer, mərkəzi sinir sistemi və əzələ-skelet sistemi xəstəlikləri səbəbindən ölüm riski ilə əlaqəli olduğu və hətta intihar ehtimalını artırdığı müəyyənləşib.

Tədqiqat zamanı 128 min qadın və kişinin sağlamlıq haqqında məlumatlarına baxış keçirilib. Xroniki xəstəlikləri olmayan bu insanların təxminən 49 mini araşdırma aparılan 21 il ərzində vəfat edib. Mütəxəssislər çox oturmağın xərçəngdən ölüm riskini 10 faiz artırdığını, əzələ-skelet sistemi xəstəliklərindən isə ölüm təhlükəsini 60 faizə yüksəltdiyini deyiblər. Az oturmağın faydalı olduğunu qeyd edən tədqiqatçılar bir saat oturduqdan sonra iki dəqiqə ayaq üstə dayanmağın və ya yüngül hərəkətlər etməyin qanda xolesterin, səviyyəsinə, şəkər və təzyiqə təsir etdiyini diqqətə çatdırıblar.

## Pulmonoloq: Qadınlar arasında siqaretçəkmədə artım müşahidə olunur

Tütündən istifadə edilməsi bütün dövrlərdə ən böyük bəlalardan biri kimi qəbul olunub. Zaman keçsə, əsrlər ötsə də, bu gün də onun zərərli təsirinə məruz qalanlar həm özlərinin, həm də ətrafdakıların sağlamlığını təhlükə ilə üzüzə qoyurlar. AZƏRTAC xəbər verir ki, Azərbaycan Tibb Universiteti Tədris-Terapevtik Klinikasının pulmonologiya şöbəsinin müdiri Əlizamin Sadıqov bununla əlaqədar deyib: “Dünya Səhiyyə Təşkilatının ekspertləri araşdırma nəticəsində belə bir rəyə gəliblər ki, siqaret çəkənlərin demək olar ki, hamısı bu zərərli vərdişi yeniyetmə yaşında öyrənməyə başlayıb. Bəzən yeniyetmə maraq və həvəs naminə bir neçə qullab vurduğu zərərli vərdişdən qurtulmaq üçün çox böyük əziyyət və zəhmət çəkir. Aparılan tədqiqatlar göstərir ki, valideynlərin, ictimaiyyətin və səhiyyə təşkilatlarının birgə səyi ilə siqaret çəkənlərin sayını il ərzində 25 faizə qədər azaltmaq mümkündür. Dünya əhalisinin təxminən 26 faizə qədəri, yəni 1,3 milyard nəfərə yaxını tütündən istifadə edir. Onlar il ərzində 500 milyard siqaret çəkir və ətrafdakıları passiv tütünçəkməyə məruz qoyur. Məsələ burasındadır ki, passiv siqaret çəkənlər də onlar kimi kardiovaskulyar, enfizema, sidik kisəsi, ağciyər, mədə xərçəngi kimi, bunlardan əlavə xroniki bronxit, mədə yarası və digər xəstəliklərə tutulurlar”.

Qadınlar arasında siqaretçəkmə halları daha çox narahatlıq doğurur. Pulmonoloqun dediyinə görə, cəmiyyətdə qadınlar arasında bu sahədə artım tendensiyası müşahidə olunur. Son 20 ilin məlumatına əsasən kişilər arasında siqaretçəkmə 4 faiz azaldığı halda, qadınlar arasında 0,4 faiz artım var. Siqaretdən istifadəyə nə qədər tez başlanılırsa, onun fəlakətli nəticələri də o qədər ağır olur. Hamilə qadının siqaret çəkməsi dünyaya gələn körpədə çəki azlığı, fiziki inkişafdan qalma, astma xəstəliyi, respirator infeksiyalarının yüksək olma ehtimalını yaranır. Dünya alimləri belə bir qənaətə gəliblər ki, bətndaxili uşaq ölümünün birinci səbəbi hamilə qadının siqaret çəkməsidir. Yaxud valideynlərdən birinin siqaret çəkməsi tütünün təsirindən hətta 2-3 aylıq körpənin qəfləti ölümünə səbəb ola bilər. Pulmonoloq daha sonra deyib: “Siqaret tüstüsünün ilk targeti, başqa sözlə desək, hədəfi ağciyərlərdir. Yeniyetmə və gənclər arasında maarifləndirmə işi aparmaqla onları zərərli vərdişin təsirindən uzaqlaşdırmaq lazımdır. Siqaret çəkənlə həkimin apardığı 3 dəqiqəlik söhbət onlarda imtinaya motivasiyanı 25 faiz gücləndirir. Əslində isə bütün xəstəliklərin ilkin profilaktikası siqaretdən tam imtina etməkdən ibarətdir”.

## ELAN

İtaliya Respublikası vətəndaşı GREGGIO ERNESTO-nın Azərbaycan Respublikasının ərazisində MYİ 0341467 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Avstraliya Birliyinin vətəndaşı Wayne Alan Nyclor-un Azərbaycan Respublikasının ərazisində MYİ 0371116 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Filip Koutinyo üçün 270 milyon avroluq təklif



PSJ klubu “Barselona”nın futbolçusu Filip Koutinyonu transfer etmək niyyətindədir. AZƏRTAC xəbər verir ki, Braziliya millisinin də formasını geyinən Koutinyo üçün PSJ klubu rekord məbləğ - 270 milyon avro təklif edib. Lakin həmin məbləğ birbaşa “Barselona”ya deyil, futbolçunun agentinə ödəniləcək.

Müqavilə 2023-cü ilə qədər nəzərdə tutulub. Məlumata görə, Koutinyonun PSJ klubuna gətirilməsi ideyası Neymara məxsusdur. Xatırladaq ki, Neymar özü “Barselona”dan PSJ klubuna 222 milyon avro müqabilində keçib. Koutinyo isə bu ilin yanvarında “Liverpul”dan ayrılaraq Katalonya komandasının formasını geyinib. Bu transfer katalonlara 125 milyon avroya başa gəlib.

## Lopeteqi Ronaldonu razı sala bilmədi



“Real”ın yeni baş məşqçisi Xulen Lopeteqi komandadan ayrılmaq istəyən Kriştiano Ronaldonu fiikrindən daşındırmağa çalışıb. Qol.az-ın “Mundo Deportivo”ya istinadən yaydığı xəbərə görə, Lopeteqi portuqaliyalı hücumçuya zəng edərək ona “Real”da qalmağın faydalı olduğunu inandırmağa çalışıb. Lakin Ronaldo baş məşqçinin fikirləri ilə razılaşmayıb. Qeyd edək ki, Ronaldonun “Yuventus”a keçəcəyi gözlənilir. Onun dünən Turin klubunun baş məşqçisi Massimiliano Alleqri ilə də telefonla danışdığı haqda xəbər yayılıb.

## Xorvatiya - İngiltərə matçını Cüneyt Çakır idarə edəcək



“DÇ-2018”in yarımfinal mərhələsinin Xorvatiya - İngiltərə görüşünü idarə edəcək hakimlər müəyyənləşib. SİA-nın məlumatına görə, sözügedən matçın baş hakimi türkiyəli ədalət təmsilçisi Cüneyt Çakır olacaq. Ona həmyerliləri Bahattin Duran və Tarık Ongun köməklik edəcək. Matçın 4-cü hakimi Hollandiya Futbol Federasiyasından Byörn Kuypers olacaq. Qeyd edək ki, Xorvatiya - İngiltərə matçı iyulun 11-i Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

## İspaniya Super Kuboku Mərakeşdə keçiriləcək



İspaniya Super Kubokunun matçı avqustun 12-də keçiriləcək. SİA-nın məlumatına görə, həlledici görüşdə İspaniya La Liqasının qalibi “Barselona” və ölkə kubokunun finalçısı “Sevilya” komandaları üz-üzə gələcək. Final qarşılaşması Mərakeşdə baş tutacaq. “Sevilya” “Neftçi”nin Avropa Liqasının II təsnifat mərhələsindəki potensial rəqibidir. “Neftçi” I təsnifat mərhələsində Macarıstanın “Uypeşt” komandasını keçəcəyi təqdirdə, İspaniya təmsilçisi ilə qarşılaşacaq. Xatırladaq ki, İspaniya Super Kuboku 1982-ci ildən mütəmadi olaraq keçirilir. Super Kubok uğrunda əvvəllər iki oyun keçirilirdisə, bu il yalnız bir matçdan ibarət olacaq.

## “Borussiya” yeni baş məşqçisini rəsmən təqdim edib



Almaniyanın “Borussiya” (Dortmund) futbol klubu yeni baş məşqçisini rəsmən təqdim edib. SİA-nın məlumatına görə, Bundesliqa təmsilçisi bu ilin mayında anlaşdığı Lüsyen Favr üçün təqdimat mərasimi təşkil edib. Altmış yaşlı isveçrəli mütəxəssislə ikiillik müqavilə imzalandığı bildirilib. Qeyd edək ki, Favr ötən mövsüm “Nitsa”nın baş məşqçisi olub. “Borussiya”nı geridə qalan mövsümün birinci hissəsində Peter Bos, ikinci hissəsində isə Peter Şteger çalışdırıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**